Əbu Bəkr əs Siddiqin (r.a) fəziləti.

Ön söz:

Həqiqətən həmd (şükür və tərif) yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərifedir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyirik. Nəfslərimizin şərrindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Aləmlərə rəhmət olaraq göndərilən peyğəmbərimiz Muhəmmədə, (s.a.s) ailəsinə və səhabələrin hamısına Allahın salamı və xeyir duası olsun.

Oxuculara təqdim olunan bu risalə Peyğəmbərin (s.a.s) sevimli, möhtərəm səhabəsi, dostu, silahdaşı Əbu Bəkr (r.a) haqqındadır. Risalənin çox uzun olmaması üçün əlavə şərhlərə yer vermədən, əsasən hədislərə və alimlərin sözlərinə yer verilmişdir. Risalə iki əsas fəsildən ibarətdir. İlk öncə əhli Sünnə mənbələrində, ikinci son fəsildə isə şiə mənbələrində Əbu Bəkrin (r.a) fəzilətinə dair dəlillər toplanmışdır. Bu çalışma əsas etibarı ilə Əbu Əli Abdullahın (Efendi) "ПРЕИМУЩЕСТВА СПОДВИЖНИКОВ, ДА БУДЕТ ДОВОЛЕН ИМИ АЛЛАХ" və şəhid İhsan Zahirin "Шииты и обитатели дома"kitablarından edilmiş tərcümələr əsasında tərtib olunmuşdur. Həmçinin, bəzi əlavələr edilməklə digər qaynaqlardan da istifadə olunmuşdur. Ümid edirik ki, oxucular üçün bu risalədə olan məlumatlar çox faydalı olacaqdır. Eyni zamanda bu əzəmətli səhabələri daha yaxından tanımağa və onlara olan sevginin daha da artmasına vəsilə olacaqdır. İnsan işi olduğu üçün risalə mükəmməllikdən uzaq deyildir.

Fuad Burhan

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

Onun adı Əbu Bəkr Abdullah ibn Osman ibn Amr ibn Amr ibn Kabb ibn Sad ibn Teym ibn Murrah, anasının adı isə Ummul Xeyr-Səlma bint Səhr ibn Amir ibn Amir ibn Kəbb idi.

Onu "Siddiq" ona görə adlandırmışdılar ki, ilk dəfə məhz o Muhəmmədin (s.a.s) risalətini təsdiq etmişdir. Həmçinin, qeyd olunur ki, onu bu adla Merac gecəsinin səhəri günü adlandırıblar. O, İslama gəlməmişdən öncə də günahlardan çəkinənlərdən idi. İmam Əbu Davud qeyd edir ki, Əbu Bəkr və Osman cahiliyyə dövründə də şərab içmirdilər." Əbu Davud; "Sünən" №4504

Mübarəkfuri yazır: "Peyğəmbərin (s.a.s) ilk dəvət etdiyi və risalət təbliğ olunan insanların başında Əbu Bəkr (r.a) gəlirdi. Əbu Bəkr (r.a) bu təklifi tərəddüd və şübhə etmədən qəbul etdi, kişilər arasında şəhadət kəlməsi gətirən ilk şəxs oldu. O, Peyğəmbərin (s.a.s) çoxdankı dostu idi, onu yaxından tanıyırdı və ondan iki yaş kiçik idi. Onun ilk iman gətirməsi isə onun sadiq olmasının ən bariz göstəricisidir."

"Peyğəmbərin (s.a.s) həyatı", "İlk müsəlmanlar" fəsli

İbn Hişam yazır: “Əbu Bəkr (r.a) İslamı qəbul etdikdə onu açıq-aşkar bəyan etdi və insanları Allah və Rəsuluna dəvət etməyə başladı. O, öz qövmündə möhtərəm, sayılıb-seçilən və həlim bir insan idi. Əbu Bəkr (r.a) Qureyş arasında savadına və alicənablığına görə seçilirdi. O, ticarətlə məşğul olurdu və yüksək mənəviyyat sahibi idi. Qövmünün kişiləri onun bu xüsusiyyətinə görə onunla dost olmağa çalışırdılar.

O, ilk olaraq Allaha və İslam dininə onunla dostluq edən, ona inananları dəvət etməyə başladı. Bilindiyi kimi onun dəvəti ilə İslamı Osman ibn Əffan, Zubeyr ibn Əvvam, Əbdurrahmən ibn Auf, Sadd ibn Əbu Vəqqas, Təlha ibn Ubeydullah kimi səhabələr qəbul etdilər. Onlar onun dəvətini qəbul etdikdə Əbu Bəkr (r.a) onları Peyğəmbərin (s.a.s) yanına dəvət etdi. Onlar da İslamı qəbul edib, ibadət etməyə başladılar.

Peyğəmbər (s.a.s) deyir: “Mən kimi İslama dəvət etdimsə, o öncə tərəddüd və şübhə edirdi. Əbu Bəkr isə mənim dəvətimi tərəddüd etmədən qəbul etdi.”

📚 İbn Hişam, “Sira”, “İlk müsəlmanlar” fəsli

1) İbn Hibban “Səhih” kitabında “Zeyd ibn Sadd ibn Əmmar ibn Abdullah ibn Zubeyrdən, o da atasından rəvayyət edir: ”Əbu Bəkrin adı Abdullah ibn Osman idi. Peyğəmbər (s.a.s) ona dedi: “Sən Allahın oddan azad etdiyi kimsəsən.” Bundan sonra onu “Ətiq” (azad olunmuş) adlandırmağa başladılar.”

Şeyx Əbdulqadir Arnaut yazır: “Hədisin sənədi səhihdir.” Şeyx Albani yazır: ”Hədis digər mətnlərdən olan şahidliklərə görə səhihdir.” 📚 “Məcmau Zəvaid”, 9/№14289

Heysəmi bu hədisi Təbərani və Bəzzardan nəql edib və deyib ki, raviləri doğruculdur. Bu hədisi və oxşar mətnlə olan hədisləri imam Bəzzar “Müsnəd”də (№2213), Abdullah əl Ənsari “Təbaqat əl muhaddisin bil İsfəhan” də (№609), ibn Əsakir “Tarix mədinətul Dəməşq”də (c.30,səh 20), ibn Hacər, Təbəri, Əbu Yəla, Təbarani və s. alimlər kitablarında rəvayyət etmişlər.

2) İbn Hibban “Səhih” kitabında Əvna ibn Əbu Cuhəyfədən, o da atasından rəvayyət edir ki, o Peyğəmbərin (s.a.s) belə dediyini eşitmişdi: “Əbu Bəkr və Ömər peyğəmbər və elçilərdən başqa cənnətdə olan ilk və sonuncu müdrik adamaların seyyididirlər.📚 İbn Hibban, “Səhih” №6904

Həmçinin, bu hədisi ibn Əsakir “Tarix mədinətul Dəməşq”də (c.30,səh 165); imam Əhməd “Fədail əshab”da (c.1, №499), Tirmizi “Sünən”də (№4026), ibn Macə “Sünən”də (№100), Bəzzar “Müsnəd”də (№831) rəvayyət etmişlər. Şüeyb Arnaut yazır: “Hədis səhihdir.” Şeyx Albani yazır: “Hədis səhihdir”

3) İmam Buxari "Səhih" əsərində yazır ki, Cubeyr ibn Mutim (r.a) dedi:

“Bir gün Peyğəmbərin (s.a.s) yanına bir qadın gəldi. Peyğəmbər (s.a.s.) onun yanına gələn qadına dönüb, bir müddət sonra gəlməyini bildirdi. Qadın: "Səni tapa

bilməsəm necə?!" deyə soruşduqda, O (s.a.s.) dedi: "Məni tapmasan, Əbu Bəkrin yanına get!" 📚 “Səhih Buxari”, 7/22, 3659-cu hədis

4) İmam Təbərani Hakim ibn Saddan rəvayyət edir ki, o Əli ibn Əbu Talibin (r.a) belə and içdiyini eşitdi: “Allah Təala “Siddiq” adını Əbu Bəkrə səmadan nazil etmişdir.” 📚 “Muasəsat fiqh Əli ibn Əbu Talib”, səh 170

İmam Heysəmi yazır: “Təbərani deyir ki, raviləri etibarlıdır.” 📚 “Məcmau Zəvaid”, №14295; İbn Hacər əl Əskalani bunu “Fəthul bari” (c.7,səh 7) kitabında qeyd edib və yazıb ki, raviləri etibarlıdır.”

5) Əbu Musa əl Əşaridən (r.a) rəvayyət olunan uzun bir hədisdə deyilir:

“Bir dəfə Əbu Bəkr (r.a) Peyğəmbərin (s.a.s) yanına daxil olmaq üçün izn istədi. Mən bunu Peyğəmbərə (s.a.s) bildirdikdə o dedi: “İzn ver gəlsin və onu cənnətlə müjdələ. Sonra Ömər ibn Xəttab (r.a) Peyğəmbərin (s.a.s) yanına daxil olmaq üçün izn istədi. Mən bunu Peyğəmbərə (s.a.s) bildirdikdə o dedi: “İzn ver gəlsin və onu cənnətlə müjdələ. Sonra da Osman ibn Əffan (r.a) Peyğəmbərin (s.a.s) yanına daxil olmaq üçün izn istədi. Mən bunu Peyğəmbərə (s.a.s) bildirdikdə o dedi: “İzn ver gəlsin və onu cənnətlə müjdələ.” 📚 “Səhih Buxari”, c.7,səh 25

Muhəmməd ibn Cəfər əl Qəttani yazır: “Qəstalani “İrşadus sari” kitabında “Möminlərin əməllərinin fəziləti” fəslində qeyd edir ki, Əbu Bəkrin (r.a) digər səhabələrdən üstünlüyü çoxsaylı dəlillərlə sabitdir və onlar məna baxımdan mütəvatir səviyyəsindədirlər.” 📚 “Mutənasira minəl hədisəl mutəvatira”, №228

6) İmam Əhməd “Müsnəd” kitabında Əli ibn Əbu Talibdən (r.a) rəvayyət edir:

“Mənə Abdullah öz atasından, o da Süfyan ibn Uəynədən, o da Əbu İshaqdan, o da Əbdulxeyrdən, o da Əli ibn Əbu Talibdən rəvayyət edir ki, o demişdir:

“Bu ümmətdə Rəsulullahdan (s.a.s) sonra ən xeyirli insanlar Əbu Bəkr (r.a) və Ömərdir (r.a)" 📚 “Müsnəd”, “Əli ibn Əbu Talibin fəziləti”, fəsli №888; oxşar hədislər №793,795,837, 838, 882, 980, 981,1008

Şeyx Şueyb Arnaut “Müsnəd” kitabında bu hədisin şərhində yazır:

“Ravilər silsiləsi səhihdir, ravilər etibarlıdır. Əbdulxeyrdən başqa digər raviləri Buxari və Muslimin raviləridir. Ondan isə “Sünən” sahibləri rəvayyət etmişlər və o etibarlı ravidir.”

7) Buxarinin və Əbu Davudun nəql etdiyi hədisdə Əlinin (r.a) oğlu Muhəmməd ibn əl-Hənəfiyə "Peyğəmbərdən (s.a.s) sonra insanların ən xeyirlisi kimdir?" deyə atasına sual verir?

Əli (r.a) cavabında dedi: “Əbu Bəkr.

Oğlu soruşdu: Bəs sonra?

Əli dedi: Ömər.

Oğlu dedi: "Mən ondan sonra Osmanın adını çəkəcəyindən ehtiyyatlanaraq dedim, ondan sonrada sənsən?!"

Əli (r.a) dedi: “Mən də müsəlmanlardan biriyəm.”

📚 “Səhih Buxari”, "Mənaqib”№3395; Əbu Davud, “Sünən”, c.3, №4629

Buna bənzər hədisi Təbərani “Mucəm əusat”, (c.1,№814) kitabında həmçinin, imam Əhməd “Səhabələrin fəziləti” (1/№552, 554) kitabında nəql etmişlər.”

8) İbn Macə Abdullah ibn Sələmədən rəvayyət edir ki, o Əli ibn Əbu Talibin (r.a) belə dediyini eşitmişdir: “Bu ümmətdə Rəsulullahdan (s.a.s) sonra ən xeyirli insanlar Əbu Bəkr (r.a) və Ömərdir.” 📚 İbn Macə, “Sünən”, “Fədail Ömər” №103

Şeyx Albani yazır: “Hədis səhihdir.” 📚 “Səhih Sünən İbn Macə”, №86

9) İmam Hakim “Müstədrək” kitabında yazır: “Əlidən (r.a) “Vəsiyyət etmirsən?” - deyə soruşduqda, o demişdir: “Peyğəmbər (s.a.s) kimi vəsiyyət edirəm amma, Allah insanlar üçün xeyir istəsə, Peyğəmbərdən (s.a.s) sonra səhabələri xeyir üzərində cəm etdiyi kimi onları da xeyir üzərində cəm edəcəkdir.” 📚 Hakim, “Müstədrək” №4467

Həmçinin, bunu İmam Əhməd “Səhabələrin fəziləti” (2/№595,622); Beyhəqi “Sünən Kubra” (8/149); Bəzzar “Müsnəd” (№565) kitablarında öz sənədləri ilə nəql etmişlər.

Hakim bu hədisi səhih adlandırmış və imam Zəhəbi də “Təlxis” kitabında bununla razılaşmışdır. Heysəmi də buna bənzər hədisi Şaqiqə istinadən nəql etmişdir və yazır:

“Ravilər silsiləsi İsmayıl ibn Əbu Haris istisna olmaqla “Səhih” kitab müəlliflərinin raviləridir. O, özü də etibarlı ravidir.” 📚 “Məcmau Zəvaid”, 9/50

Qeyd: Peyğəmbərin (s.a.s) “varis buraxmadı” sözünü şərh etmək istərdik.Əhli Sünnət alimləri arasında bu məsələdə iki rəy vardır:

Birnci: Peyğəmbər (s.a.s) birbaşa varis təyin etmişdir.

İkincisi: Peyğəmbər (s.a.s) özündən sonra görmək isədiyi adamı bəzi işarələr ilə bildirmişdir. İkinci rəy daha üstündür. Çünki,Əli ibn Əbu Talibin (r.a) sözündən başqa bu həmçinin Ömər ibn Xəttabın (r.a) sözü ilə də təsdiqlənir.

Səhih Buxaridə yazılır: “Bir dəfə Ömərdən (r.a) “Özünə vəliəhd təyin edirsənmi?” deyə soruşduqda o dedi: “Əgər təyin etsəm, məndən daha xeyirli olanın (Əbu Bəkr) etdiyi kimi etmiş olaram. Əgər təyin etməsəm hamıdan xeyirli olanın (Rəsulullah (s.a.s) etmədiyi kimi etmiş olaram.” 📚 Zubəydi, “Müxtəsər səhih Buxari”, №2113

Peyğəmbərin (s.a.s) Əbu Bəkri (r.a) namazda imam təyin etməsi, onun Peyğəmbər (s.a.s) ilə mağara yoldaşı olması və digər aşkar üstün keyfiyyətlərinə görə səhabələr yekdilliklə ona beyət etdilər. Səhih Muslimdə olan digər hədis də Peyğəmbərin (s.a.s) özündən sonra Əbu Bəkri (r.a) xəlifə görmək istəməsini təsdiqləyir.

10) Səhih Buxari və Muslimdə Aişə (r.a) deyir: “Peyğəmbər (s.a.s) xəstələndiyi zaman mənə dedi: "Əbu Bəkri və qardaşını mənim yanıma çağır ki, bir yazı yazım. Mən qorxuram ki, kimsə iştahalı biri desin ki, mən daha layiqəm. Lakin, Allah və möminlər Əbu Bəkrdən qeyrisinə razı olmazlar."

Səhih Muslim, “Kitab Fədailus Səhabə”, № 2387; Səhih Buxari, “Kitabul Marad”, № 5666

11) Peyğəmbər (s.a.s) xəstəliyi şiddətlənincə Əbdurrəhman ibn Əbu Bəkrə (r.a) buyurdu: "Mənə kağız-qələm gətir ki, bir yazı yazdırım ki, onun üzərində ixtilaf etməyəsiz!" Əbdurrəhman ibn Əbu Bəkr qələm-kağız üçün qalxmaq istədikdə buyurdu: "Otur! Əbu Bəkr üzərində ixtilaf olmasına Allah da müsəlmanlar da raz olmazlar."

"Müsnəd Əhməd", c. 6,səh 47; Bəlazuri, "Ənsabul əşrəf", c.1,səh 541

Qeyd etmək lazımdır ki, İslam ümmətində Peyğəmbərdən (s.a.s) sonra kimin ən fəzilətli və xilafətə daha layiq olması məsələsində ixtilaf yoxdur. Əbu Mənsur əl Bəğdadi ət Təmimi yazır:

“Bizim məzhəbin alimləri arasında heç bir ixtilaf yoxdur ki, ən fəzilətli səhabələr dörd Raşidi xəlifə, sonra yerdə qalan altı “Cənnətlə müjdələnmiş” səhabə, sonra Bədrdə, Uhudda döyüşənlər və ağac altında beyət edənlərdir.” “Səhihul cami”, səh 50

12) İbn Abbas (r.a) rəvayyət edir: “Mən Ömər ibn Xəttabın (r.a) vəfatından sonra, onun çarpayısının ətrafına toplaşıb, dua edənlərin arasında dayanmışdım. Arxamda dayanan bir kişi dirsəyini çiynimə qoyub dedi: “Allah sənə rəhmət etsin! Allahdan istəyirəm ki, sən yoldaşlarınla (Muhəmməd (s.a.s) və Əbu Bəkrlə (r.a) bir yerdə olasan! Çünki, mən çox vaxt Peyğəmbərin (s.a.s) "Mən, Əbu Bəkr və Ömər filan yerdə idik. Mən, Əbu Bəkr və Ömər filan əməli etdik. Mən, Əbu Bəkr və Ömər filan yerə getdik" dediyini eşidirdim." Mən dönüb arxamda dayananın kim olduğuna baxdım. Bu, Əli bin Əbu Talib (r.a) idi.” “Səhih Buxari”, c.7,səh 26, 3677-ci hədis

13) Əbu Səid əl-Xudri (r.a) rəvayyət edir: Peyğəmbər (s.a.s.) demişdir: "Mənim səhabələrimi söyməyin! Həqiqətən, sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə belə, onlardan birinin verdiyi bir ovuca (sədəqəyə) hətta, yarısına belə çata bilməz.”

Səhih Buxari”, 7/25,hədis 3673

14) Ənəs (r.a) rəvayyət edir: Bir dəfə Peyğəmbər (s.a.s) Əbu Bəkr (r.a) Ömər (r.a) və Osmanla (r.a) bərabər Uhud dağına qalxdılar. Bu vaxt dağ silkələndi və Peyğəmbər (s.a.s) dağa dedi: “Sakit ol, ey Uhud! Sənin üzərində Peyğəmbər, siddiq və iki şəhid var.”

“Səhih Buxari”, 7/66, 3697-ci hədis; Əbu Davud, “Sünən” c.3, №4651; Tirmizi, “Sünən”, “Mənakib Osman”, №3636; Nəsai, “Sünən” №3551, ibn Hibban, “Səhih” c.15,№6865 və s.

15) Əbu Səid əl Xudri (r.a) rəvayyət edir: “Peyğəmbər (s.a.s) son xəstələyi ərəfəsində səhabələrə xitab edərək, dedi: "Həqiqətən, mənə ən yaxın yoldaş və mal-dövləti ilə ən çox qayğı göstərən Əbu Bəkrdir. Rəbbimdən qeyrisini sevmiş olsaydım, (ifrata varmaqla) Əbu Bəkri sevərdim. Lakin, o mənim müsəlman qardaşımdır. Elə isə, məscidə açılan Əbu Bəkrin qapısından başqa bütün qapıları bağlayın!”

📚 “Səhih Buxari”, c.7,səh 15, 3654-cü hədis

İbn Hibban deyir: “Bu hədis Peyğəmbərdən (s.a.s) sonra Əbu Bəkrin (r.a) xəlifə olmağına dəlildir. Əbu Bəkrin qapısından başqa bütün qapıları bağlatmaqla o başqa birilərinin xəlifə olmaq istəklərini puç etmiş oldu.” 📚 “İthaf əl kari bi ixtisar fəth əl bari”, c.7,səh 336-337

Suyuti “Əzhar” kitabında bu hədisi Əbu Səid Xudri, Abdullah ibn Abbas, Abdullah ibn Zubeyr, ibn Məsud, Cundub əl Bəcali, Əbul Məali, Əbu Hureyra, Ənəs, ibn Ömər, Aişə, Cabir ibn Abdullah, Sad ibn Əbu Vəqqas və s.səhabələrdən rəvayyət etmişdir.

Şeyx Abdurrauf Munəvi “Təysir” kitabında yazır ki, bu hədis mütəvatirdir. Şeyx Murtəza əl Zabidi “Şərhul ihya”da deyir: “Bu hədis mütəvatirdir,bunu 15 səhabə rəvayyət etmişdir.” 📚 “Mutənasira minəl hədisəl mutəvatira”, №231

16) Səhih hədis kitablarında Aişədən (r.a) rəvayyət olunur: “Peyğəmbər (s.a.s) son xəstəliyi sırasında yatağında idi. Azan səsləndi və namaz ərəfəsində o buyurdu: “Əbu Bəkrə deyin ki, o camaata imamlıq etsin.” Ona dedilər: “Əbu Bəkr çox kədərlidir və ağlayır. Əgər o yerinizə imam olsa kövrəkliyinə görə namazı qıldıra bilməz.”

Peyğəmbər (s.a.s) göstərişini təkrar etdikdə, ona yenə eyni cavabı verdilər. Peyğəmbər (s.a.s) üçüncü dəfə bunu təkrar etdi və dedi: "Həqiqətən, siz Yusifin dostları kimisiniz, Əbu Bəkrə deyin camaata namaz qıldırsın!" Onda Əbu Bəkr (r.a) insanların önünə keçdi və onlara namaz qıldırdı. Bu ərəfədə Peyğəmbər (s.a.s) biraz yaxşılaşdı və o iki nəfərin yardımı ilə evdən məscidə gəldi. Mən sanki, onu yenidən ayaqlarını xəstəliyinə görə yerdən çəkinlikdə qaldırdığını görürmüş kimiyəm. Onu görəndə Əbu Bəkr arxaya çəkilmək istədi. Amma, Peyğəmbər (s.a.s) ona əli ilə işarə edərək bildirdi ki, yerində qalsın. Sonra onu ehmalca Əbu Bəkrin (r.a) yanına apardılar və o onun yanında oturdu. Beləcə Peyğəmbər (s.a.s) namaz qıldı, Əbu Bəkr (r.a) isə ona iqtida etdi, insanlar isə Əbu Bəkrə (r.a) iqtida etdilər.”

📚 “Səhih Buxari”, “Kitabətul azan”, hədis 687; Səhih Muslim, “Kitabus salat”,hədis 418

Bu hədisin digər versiyasında isə deyilir ki, Peyğəmbər (s.a.s) Əbu Bəkrin (r.a) solunda oturdu, o isə ayaq üstə namaz qılırdı.”

📚 Zubəydi, “Müxtəsər səhih Buxari” №377

Peyğəmbər (s.a.s) hiss edirdi ki, Aişə (r.a) Əbu Bəkrin kövrək olmasını bəhanə edir amma, əslində başqa şey düşünür. Sonralar Aişə (r.a) bu sirrin üstünü açaraq belə demişdi: “Allaha and olsun ki, mən bunu Əbu Bəkrin halını düşünərək deyirdim.

Çünki, mən bilirdim ki, insanlar Peyğəmbərin (s.a.s) yerini tutan insanı heç vaxt sevməyəcəklər və onu günahlandıra bilərlər.”

📚 “Səhih Buxari”, “Kitabul məğazi”, hədis 4445; “Səhih Muslim”, “Kitabus salət”, hədis 418

17) Səhih Buxaridə varid olan hədisdə Ənəs ibn Malikdən (r.a) rəvayyət olunur ki, Peyğəmbərin (s.a.s) son xəstəliyi ərəfəsində insanlarla namazı Əbu Bəkr (r.a) qıldırırdı və bu bazar ertəsinə qədər davam etdi. Bazar ertəsi günü insanlar namaz üçün sıraya düzüləndə Peyğəmbər (s.a.s) üzü vərəq kimi ağ rəngdə olduğu halda otağının pərdəsini araladı və qapıda duraraq bizə sarı baxdı, sonra isə gülümsədi. Bunu görən insanlar çox sevincək oldular. Bu arada Əbu Bəkr (r.a) Peyğəmbərin (s.a.s) önə keçəcəyini zənn edib, arxa sıraya çəkilmək istədi. Lakin, Peyğəmbər (s.a.s) işarə etdi ki, onlar namazlarını bitirsinlər. Daha sonra pərdəni çəkdi. Elə həmin gün Rəsulullah (s.a.s) vəfat etdi.” 📚 Zubəydi, “Müxtəsər səhih Buxari”, №384

18) Aişədən (r.a) rəvayyət olunur: ”Peyğəmbərin (s.a.s) son xəstəliyi sırasında ağrıları şiddətlənincə dedi: “Camaat namazı qıldımı?” Biz cavab verdik: “Xeyr, onlar sizi gözləyirlər. Sonra Peyğəmbərə (s.a.s) yuyunmaq üçün su təqdim etdilər. Peyğəmbər (s.a.s) dəstəmaz aldıqdan sonra ayağa durub, namaza getmək istədikdə huşunu itirib yıxıldı. Daha sonra özünə gəldikdə dedi: “Camaat, namazı qıldımı?!”

Dedilər: “Ey Allahın elçisi! Onlar sizi gözləyirlər. Peyğəmbər (s.a.s) dedi: “Mənə su gətirin. Suyu gətirdilər və o dəstəmaz aldı. Sonra ayağa durub, namaza getmək istədikdə huşunu itirib yıxıldı. Atam anam ona fəda olsun. Üçüncü dəfə huşunu itirib bayıldıqda dedi: “Camaat, namazı qıldımı?

Dedilər: “Onlar sizi gözləyirlər.”

Bu arada isə insanlar məsciddə Peyğəmbəri (s.a.s) gecə namazı qılmaq üçün gözləyirdilər. Peyğəmbər (s.a.s) buyurdu: “Əbu Bəkrə deyin, qoy camaata namaz qıldırsın.”

Peyğəmbərin (s.a.s) göndərdiyi adam Əbu Bəkrə (r.a) gəlib dedi: “Peyğəmbər (s.a.s) sənə camaata namaz qıldırmanı istəyir.” Onda qəlbi həlim olan Əbu Bəkr (r.a) Ömərə (r.a) dedi: “Ey Ömər! İnsanlara namazı sən qıldır.” Lakin, Ömər (r.a) ona dedi: “Sən buna daha layiqsən.”

Bu günlərdə camaat namazını Əbu Bəkr (r.a) qıldırırdı. Bir müddətdən sonra isə Peyğəmbərin (s.a.s) halı nisbətən yaxşılaşdı və o evdən zöhr namazı qılmaq üçün iki adamın köməyi ilə məscidə gəldi. Bu zaman Əbu Bəkr (r.a) camaata imamlıq edirdi.

Onu görəndə Əbu Bəkr arxaya çəkilmək istədi. Amma, Peyğəmbər (s.a.s) ona əli ilə işarə edərək bildirdi ki, yerində qalsın. Sonra onu ehmalca Əbu Bəkrin (r.a) yanına apardılar və o onun yanında oturdu. Beləcə Peyğəmbər (s.a.s) namaz qıldı, Əbu Bəkr (r.a) isə ona iqtida etdi. İnsanlar isə Əbu Bəkrə (r.a) iqtida etdilər.”

📚 Zubəydi, “Müxtəsər səhih Buxari”, №386

19) İbn Şihab “Sira”da yazır: “Abdullah ibn Zəməa rəvayyət edir: “Peyğəmbər (s.a.s) xəstələnən ərəfədə mən bir qrup müsəlman ilə onun yanında idim. Bilal azanı səsləndirdi. Peyğəmbər (s.a.s) dedi: “Qoy bir adam insanların namazına imamlıq etsin.Mən bayıra çıxdım və insanların başında Öməri gördüm.Əbu Bəkr onların arasında yox idi. Mən Ömərə dedim: “Camaatın namazını qıldır ya Ömər!”

Beləliklə Ömər (r.a) ehrama keçib təkbir aldıqda onun səsini Peyğəmbər (s.a.s) eşitdi. Ömər (r.a) isə gur səsli idi. Peyğəmbər (s.a.s) soruşdu: “Əbu Bəkr hanı? Allah və müsəlmanlar bunu istəmir, Allah və müsəlmanlar bunu istəmir.”

Əbu Bəkrin (r.a) ardı ilə adam göndərdilər. O, Ömər (r.a) namazı bitirdikdən sonra gəlib çıxdı. Abdullah ibn Zəməa deyir: “Ömər (r.a) mənə dedi: “Sənə yazıqlar olsun ey ibn Zəməa! Sən mənimlə nə etdin? Allaha and olsun ki, sən bunu mənə deyəndə, mən elə bildim ki, bunu Peyğəmbər (s.a.s) istəyir. Əgər mən belə fikirləşməsəydim camaata imamlıq etməzdim.”

Mən dedim: “Allaha and olsun ki, Peyğəmbər (s.a.s) mənə belə göstəriş verməmişdi. İnsanlar arasında Əbu Bəkr (r.a) görmədikdə düşündüm ki, sən buna daha layiqsən.”
📚 “Sira”, “Əbu Bəkrin namazda imamlığı” fəsli

Mübarəkfuri yazır: “Peyğəmbərin (s.a.s) xəstəliyinin şiddətli olmasına baxmayaraq o camaat namazına imamlıq etməyi ihmal etmirdi. Amma, cümə axşamı gecə namazı vaxtı onun halı pisləşincə camaata namaz qılmağı Əbu Bəkrə (r.a) tapşırdı. Beləcə Əbu Bəkr (r.a) tam 17 namazı birlikdə camaata imam olaraq qıldırdı.” 📚 “Nəbinin həyatı”, “Əbu Bəkrin imam təyin olunması” fəsli

Muhəmməd ibn Cəfər əl Qəttani “Əbu Bəkrin (r.a) Peyğəmbər (s.a.s) tərəfindən imam təyin olunması” fəslində yazır:

Əbulhəsən əl Əşari dedi ki, bu hadisə çoxlu sayda səhabələr tərəfindən rəvayyət olunmuş, heç kəs buna etiraz etməmişdir. Suyuti “Tarixul xulafə” kitabında yazır: “Bu hədis Buxari və Muslim tərəfindən Əbu Musa əl Əşaridən rəvayyət olunmuşdur. Hədis mütəvatirdir və bu Aişə, ibn Məsud, ibn Abbas, ibn Ömər, Abdullah ibn Zəməa, Əbu Səid əl Xudri, Əli, Həfsə və s.səhabələr tərəfindən rəvayyət olunmuşdur.”

📚 “Nəzmul mutənasira minəl hədisəl mutəvatira”, №228

20) İmam Tirmizi “Sünən”də Ömər ibn Xəttabdan (r.a) rəvayyət edir: “Əbu Bəkr bizim ağamız, bizlərin ən xeyirlisi və Peyğəmbərə (s.a.s) ən sevimlimiz idi.”

📚 Tirmizi, “Sünən”, №3656.

Şeyx Albani “Səhih Tirmizi”də yazır: “Hədis həsəndir”, "Mişqat əl məsabih”də (5973) isə yazır: “Ravilər silsiləsi həsəndir”, Tirmizi bu hədis üçün “həsən-səhih” və “səhih-qərib” demişdir. Hakim bu hədisi “Müstədrək” əsərində nəql edərək (№4395) yazır: “Buxari və Muslimin şərtlərinə görə səhihdir. Amma, onlar bu hədisi nəql etməyiblər.”

Zəhəbi də “Təlxis” kitabında bunu yazmışdır.

21) İmam Tirmizi “Sünən”də Peyğəmbərdən (s.a.s) rəvayyət edir:

”Cənnət əhlindən yüksək dərəcə sahibləri olanlar onlardan aşağıda olanları siz ulduzu gördüyünüz kimi görəcəklər. Əbu Bəkr və Ömər də onlardandır.”

Tirmizi, “Sünən”, №3658; İmam Əhməd “Müsnəd” №11514

Şeyx Albani yazır: “Hədis səhihdir.” İmam Tirmizi yazır: “Hədis həsəndir.”

Şueyb Arnaut imam Əhmədin “Müsnəd” (№11229) əsərinə olan şərhində yazır: “Hədis digər oxşar hədislərə görə həsəndir.”

22) Peyğəmbər (s.a.s) buyurdu: “Məndən sonra Əbu Bəkr və Ömərə itaət edin.”

Tirmizi, “Sünən” №3662; imam Əhməd “Müsnəd” №23946; Beyhəqi “Sünən” №10348 və s. Tirmizi yazır: “Hədis həsəndir.”

İbn Əbd əl Birr Maliki “Cami bəynəul ilm vəl fədlihi” kitabında (2/1165) yazır ki, hədis həsəndir.”

İbn əl Ərabi “Əvasim minəl kəvasim” kitabında (səh 252) yazır ki, hədis səhihdir.”

Şəukani “İrşadul fusul” (c.2,səh 275) kitabında yazır ki, hədis səhihdir.”

Albani yazır: “Hədis səhihdir.” “Səhih əl cami”, №1142

23) Peyğəmbər (s.a.s) buyurdu: “Mən bilmirəm, bundan sonra sizin aranızda nə qədər qalacam. Məndən sonra gələnlərə itaət edin deyərək Əbu Bəkr və Ömərə işarə etdi.”Tirmizi, “Sünən” №3663

Hədisi Tirmizi “Sünən” kitabında Huzeyfa ibn əl Yəməndən (r.a) rəvayyət etmişdir.

Şeyx Albani “Səhih ibn Macə”də (№80) yazır: “Hədis səhihdir.”

24) Hələbi “Sira” kitabında Peyğəmbərin (s.a.s) vəfatı ilə bağlı bəzi məqamları qeyd edir və bu hədisi nəql edir: “Əbu Bəkr mənə həm dostluğu, həmdə malı ilə ən yaxın və sadiq biridir.” Davamında yazır: “Bu hədis səhihdir, ondan bir çox səhabədən rəvayyət olunmuşdur. Çoxsaylı gəlmə yollarına görə hədis mütəvatirdir."

Qəttani, “Nəzmul mutənasira minəl hədisəl mutəvatira”, səh 452-453,№231

25) İbn Macə Əbu Hureyrədən (r.a) rəvayyət edir ki, Peyğəmbər (s.a.s) buyurmuşdur: “Əbu Bəkrin malı qədər heç kimin malı mənə belə faydalı olmamışdı. Bunu eşidən Əbu Bəkr ağladı və dedi: “Canım və malım sənə fəda olsun.”

İbn Macə, “Sünən”, №94

26) Peyğəmbər (s.a.s) Əbu Bəkr və Ömərə baxaraq dedi: “Bu ikisi sanki mənim gözüm və qulağım kimidirlər.” Tirmizi, “Sünən” №3671; imam Əhməd, “Səhabələrin fəziləti” №686; Şeyx Albani “Səhih Tirmizi”də yazır ki, “hədis səhihdir”

İbn Qəyyum “Bədail fəvaid” kitabında yazır: “hədis məşhurdur” c.1,səh 72

27) İmam Tirmizi Səid ibn Zeyddən rəvayyət edir ki, Peyğəmbər (s.a.s) buyurdu:

“On nəfər cənnətdə olacaqdır: Əbu Bəkr, Ömər, Əli, Osman, Zubeyr, Təlha, Əbdurrahmən ibn Əuf, Əbu Ubeydullah, Sad ibn Əbu Vəqqas cənnətlikdir.” Tirmizi, “Sünən” №3748; şeyx Albani “Səhih Tirmizi və Əbu Davud”da yazır: “Hədis səhihdir.” №3748, №4649

Bu hədisi həmçinin, imam Əhməd “Müsnəd” kitabında (c.3,səh 112) rəvayyət etmişdir. Şeyx Əhməd Şakir yazır: “Ravilər silsiləsi səhihdir.”

İmam Nəsai “Sünən Kubra” kitabında Əbdurrahmən ibn Aufdan (r.a) rəvayyət edir ki, Peyğəmbər (s.a.s) demişdir: “Əbu Bəkr, Ömər, Əli, Osman, Zubeyr, Təlha, Əbdurrahmən ibn Əuf, Əbu Ubeydəh, Sad ibn Əbu Vəqqas cənnətlikdir.”

Əhməd Şakir “Müsnəd” (c.3,səh 163) kitabının şərhində yazır ki, bu hədisin ravilər silsiləsi səhihdir.” Şeyx Albani ”Mişqat əl məsabih”-də (№6064) yazır: “hədis səhihdir.”

28) Əli ibn Əbu Talib (r.a) dedi: “Peyğəmbər (s.a.s) birincidir. Ondan sonra fəzilətdə Əbu Bəkr, sonra isə Ömər gəlir. Əgər yanıma məni Əbu Bəkrdən üstün tutan birini gətirsələr mən zina böhtanı atanı cəzalandırdığım kimi onu cəzalandıracağam və onun şəhadətini qəbul etməyəcəyəm.”

"Əhməd, “Səhabələrin fəziləti” c.1,№49; Qurtubi “Camiul əhkamil Quran” c.17,səh 79

29) əl Hüseyn ibn İsmaildən, o da Mahmud ibn Hadadən, o da Əsbat ibn Muhəmməddən, o da Ömər ibn Qeys əl Malidən: “Mən Cəfər ibn Muhəmməddin (Cəfər Sadiq) belə dediyini eşitdim: “Allah Təala Əbu Bəkr və Ömərdən uzaq olanlardan uzaqdır.”

Zəhəbi davamında yazır: “Deyirəm ki, Cəfər Sadiqdən olan bu xəbər təvatürdür səviyyəsindədir.” Zəhəbi, “Siyər aləmun nubulə”, c.6,səh 260

30) İbn Kəsir “əl bidayə vən nihayə” kitabında yazır:

“Bizə Əli ibn Əbu Talibdən (r.a) mütəvatir olaraq varid olmuşdur ki, o Kufə məscidində minbərdə duraraq, deyirdi: “Ey insanlar! Bu ümmətdə Peyğəmbərdən (s.a.s) sonra ən fəzilətli insanlar Əbu Bəkr, sonra Ömərdir. Əgər üçüncü adamı demək istəsəydim, onu deyərdim.” "əl Bidayə vən Nihayə", c. 11,səh 32

Hz Əlinin bu sözlərini ondan eşidib, rəvayyət edənlər arasında Əbu Cuheyfə, Abdul Xeyr əl-Həmədəni, Əlinin oğlu Muhəmməd bin əl-Hənəfiyyə, Əlqamə bin Qeys, Əli bin Rabia əl-Valibi, Əbu Kəsir əl-Ənsari, ən-Nəzzəl bin Səbra, Suveyd bin Ğafələ, Amr bin Mədi Kərib, Abdullah bin Sələmə əl-Muradi, Amr bin Hureys, Əbu Micləz və başqaları vardır.

Minbərdən bunu eşidib rəvayət edənlərin başında Əbu Cuheyfə və Abdu Xayr əl-Həmədəni gəlir; Əbu Cuheyfə səhabədir, Vəhb bin Abdilləh əs-Suvəi əl-Kufidir və Əli bin Əbi Talibin yaxın silahdaşlarından olub, onun mühafizə xidmətinin rəisi kimi çalışıb. Ondan bu xəbəri əl-Həkəm bin Uteybə, oğlu Avn, Zirr bin Hubeyş, əş-Şabi, Əbu İshaq

əs-Səbii, Hüseyn bin Abdirrahmən və başqaları rəvayət ediblər. Abdul Xeyr bin Yezid əl-Həmədəni isə muxadram təbəqəsinə aiddir, yəni cahiliyyə dövründə doğulub, Əli bin Əbi Talibin ən böyük əshabından olub. Ondan bu xəbəri Əbu İshaq əs-Səbii, Həbib bin Əbi Səbit, oğlu əl-Museyyəb, əş-Şabi, Əbu Həyyə əl-Həmədəni, Xalid bin Əlqamə, Mushir bin Abdilməlik, Ata bin Səib və başqaları rəvayyət ediblər. Bu hədis 50 nəfər səhabə və tabein olmaqla 116 isnadla gəlmişdir.

31) İmam Zeynalabidin buyurur ki, onun yanına İraqdan bir neçə nəfər gəlmişdi. Onlar Əbu Bəkr, Ömər, Osman haqqında pis sözlər danışırdılar. Onlar sözlərini qurtartıqdan sonra imam üzünü onlara tutaraq dedi: - "Deyin görək, siz öz mülkünü və vətənini Allah və onun rizası üçün tərk edib, hicrət edənlərdənsinizmi?

- Onlar dedilər: "Xeyr"

- İmam dedi: "Bəlkə siz "Onlardan (mühacirlərdən) əvvəl (Mədinədə) yurd salmış və (Muhəmməd əleyhissəlama qəlbən) iman gətirirmiş kimsələr (ənsar) öz yanlarına (şəhərlərinə) mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd (qəzəb) duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar." dansınız?

- Onlar dedilər: "Xeyr"

- İmam dedi: "Əgər siz bu qruplardan hər hansı birinə aid olmadığınızı deyirsinizsə, onda mən şəhadət verirəm ki, siz Allahın buyurduğu bu kimsələrdən deyilsiniz.

"Onlardan (mühacirlərdən və ənsarlardan) sonra gələnlər belə deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş (din) qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə (həsədə) yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən!"(Həşr 10)

"Qalxın və məni tərk edin." "Kəşful Ğummə", Ərdəbili,c.2,səh 78; Qurtubi, "Camiul əhkamil Quran", c.17,səh 225-226

32) Urvə ibn Abdullah imam Baqirdən rəvayyət edir ki, ondan qılıncı bəzəmək haqqında soruşdum.O, dedi ki, olar. Əbu Bəkr Siddiq öz qılıncını gümüşlə bəzəyərdi. Soruşan adam ona demişdir ki, sən də ona "Siddiq" deyirsən? İmam yerindən dik atılaraq demişdir: "Bəli, Siddiq deyirəm, bəli Siddiq deyirəm. Kim ona Siddiq deməsə, Allah onun sözünü bu dünyada və axirətdə təsdiqləməz." "Ərdəbili, "Kəşful Ğummə",c.2,səh 147,360

Bu əsəri həmçinin, imam Əhməd "Səhabələrin fəziləti"(c. 1,№296) kitabında bəzi fərqlərlərlə yenə Urvə ibn Abdullahdan rəvayyət etmişdir.

33) Qeys ibn Qəzvini yazır: "Bir nəfər imam Hüseyndən (r.a) soruşdu:

"Əbu Bəkr və Ömər Peyğəmbər (s.a.s) zamanı onun yanında nə mövqedə, hansı dərəcədə idilər?" İmam əli ilə (qəbirə) işarə edərək: "İndiki kimi yaxın idilər"

"İbn Hənbəl, "Kitabuz zuhd" №576,"Əbu Bəkrin zahidliyi" fəsli

34) “Sizə nə olub ki, (mal-dövlətinizi) Allah yolunda xərcləmirsiniz?! Halbuki göylərin və yerin mirası (bütün sərvəti, eləcə də siz öləndən sonra qoyub gedəcəyiniz malın hamısı) ancaq Allahındır. Sizlərdən (mal-dövlətini) fəthdən (Məkkənin fəthindən) əvvəl (Allah yolunda) sərf edənlər və (müşriklərə qarşı) vuruşanlar (başqaları ilə) eyni deyillər. Onlar (mallarını Allah yolunda) fəthdən sonra sərf edib döyüşənlərdən dərəcə e'tibarilə daha üstündürlər. Bununla belə, Allah onların hamısına (həm birincilərə, həm də ikincilərə) ən gözəl mükafat (Cənnət) və'd buyurmuşdur. Allah sizin nə etdiklərinizdən xəbərdardır!” (Hədid 10)

Qurtubi bu ayənin şərhində yazır: “əl Kəlbi dedi ki, bu ayə Əbu Bəkr (r.a) haqqında nazil olmuşdu. Bu dəlildir ki,Əbu Bəkr (r.a) fəzilətinə görə öndə gəlir. O, İslamı qəbul edən ilk kişidir.” “Səffətul təfsir”, c.6,səh 324

35) Abdullah ibn Zubeyr atasından rəvayyət edir ki, Ömər (r.a) minbərdə Əbu Bəkri (r.a) xatırlayaraq dedi: “Şübhəsiz ki, Əbu Bəkr İslamı qəbul edən və imanını izhar edən ilk adam idi.” İbn Hənbəl, “Kitabuz zuhd”c.1,səh 166, №575; Qurtubi “Camiul əhkamil Quran”c.1,səh 202

36) İbn Abbas (r.a) dedi: “Müsəlmanlardan ilk namaz qılan Əbu Bəkr (r.a) olub.”

İbn Hənbəl, “Kitabuz zuhd”c.1,səh 166, №578

İbn Məsuddan (r.a) rəvayyət olunduğuna görə “İlk qılıncını çəkib, imanını izhar edən Əbu Bəkr (r.a) olub. O, həmçinin malını İslam yolunda xərcləyən ilk adamdır.”

Qurtubi, “Camiul əhkamil Quran”c.17,səh 78-79

37) İmam Əhməd Səid ibn Cubeyrdən (r.a) rəvayyət edir ki, o demişdir: “Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun.” (Tövbə 119) yəni, Əbu Bəkr və Ömərlə olun.” İmam Əhməd, “Səhabələrin fəziləti” c.1,№491

Suyuti “Durr əl mənsur”da bu hədisi ibn Cərir ət Təbəriyə istinadən nəql edir.

Həmçinin, Suyutinin ibn Ömərdən (r.a) sənədi ilə nəql etdiyi hədisdə deyilir: “Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun.” yəni, Muhəmməd (s.a.s) və onun səhabələri ilə bərabər olun.”

Suyuti, “Durr əl mənsur” “Tövbə 119-un şərhi

38) İmam Əhməd yazır ki,Əbu Xasin (Kufə imamı və hafizi) demişdir: “Allaha and olsun ki, peyğəmbər və elçilərdən sonra Əbu Bəkrdən daha əfzəli dünyaya gəlməmişdir.” İmam Əhməd, “Səhabələrin fəziləti”c.1, №598

39) İmam Əhməd yazır ki, Furat ibn Saab Uca Allahın bu sözü “...bilin ki, Allah, Cəbrail və əməlisaleh möminlər onun dostu və yardımçısıdır. Bunlardan başqa mələklər də onun yardımçılarıdır.” (Təhrim 4) ilə əlaqədar demişdir: “əməlisaleh möminlər”-yəni, Əbu Bəkr və Ömər.”

İmam Əhməd, “Səhabələrin fəziləti”c.1, №611

Həmçinin, bu əsər həmin yerdə (№648) Muqatildən (ibn Suleyman) nəql olunmuşdur.

40) İmam Nəsai "Sünən əl Kubra" kitabında Əmr ibn Assdan (r.a) rəvayyət edir ki, o Peyğəmbərdən (s.a.s) soruşmuşdur:

"Ey Allahın Elçisi! İnsanlardan kim sənə daha çox sevimlidir?"

- O, buyurdu: "Aişə"

- Mən dedim: "Mən qadınları nəzərdə tutmuram."

- Onda O dedi: "Onun atası."

İmam Nəsai, "Sünən əl Kubra" №8052; 8063

Bunu imam Buxari də cüzi fərqlə "Səhih" kitabında nəql etmişdir.(Səhih Buxari, "Kitab Fədailus Səhabə", Bab ləv kuntu muttəxizən xəlilən,№ 3662; Muslim, "Fədailus Səhabə"№ 2348

41) Səhih Buxaridə varid olan hədisdə Əbdurrahmən ibn Əbu Bəkrdən rəvayyət olunur:

"O zamanlar Suffada yaşayanlar çox fəqir idilər. Bir gün Peyğəmbər (s.a.s) dedi: "Kimdə iki nəfərlik yemək varsa üçüncü adamı, kimdə üç nəfərlik yemək varsa dördüncü adamı özü ilə aparsın. Əbu Bəkr (r.a) üç, Peyğəmbər (s.a.s) isə on nəfəri özü ilə apardı.

Əbdurrahmən deyir: "Allaha and olsun ki, biz qazandan yemək tikəsi götürdükcə altdan yeni tikələr çıxırdı. Bu bizim hamımız yeyib, doyanacan davam etdi və qazanda olan yemək əldəyilməmiş kimi qalmışdı. Əbu Bəkr (r.a) qazana baxdıqda yeməyin olduğu kimi qaldığını görüb, zövcəsindən soruşdu: "Bu nə olan işdir?"Xanımı dedi: "Nə gözəl! İndi yemək əvvəlkindən üç dəfə çoxdur."

Onda Əbu Bəkr (r.a) yeməyin bir hissəsini verib, yerdə qalanını Peyğəmbərin (s.a.s) yanına apardı və bu yemək onun yanında qaldı.Onun yanında olan adamlar da bu yeməkdən yedilər." Zubeydi, "Müxtəsər səhih Buxari" №349

42) Səhih Buxaridə varid olan hədisdə Səhl ibn Sadd əs Səiddən rəvayyət olunur: "Bir gün Peyğəmbər (s.a.s) Bəni əmr bin əuf qəbiləsinə onların arasında barışıq yaratmaq üçün yola düşmüşdü. Bu arada namaz vaxtı yetişdi və müəzzin Əbu Bəkrə "sən namazı insanlarla qılacaqsanmı?" sualı ilə gəldi." Əgər qılacaqsansa mən azanı verim."

Əbu Bəkr (r.a) "bəli" cavabı verdi və namazı qıldırdı. Namaz davam edən sırada Peyğəmbər (s.a.s) gəldi və qabaq sıraya keçdi və səf aldı. Belə olan halda arxada olan müsəlmanlar əllərini biləklərinə vurmaqla işarə etməyə başladılar. Lakin, Əbu Bəkr (r.a) namaz əsnasında heç vaxt kənarlara baxmazdı.Bu səslər çoxalıb, şiddətlənincə Əbu Bəkr (r.a) axır ki, döndü və Peyğəmbəri (s.a.s) gördü. Lakin, Rəsulullah (s.a.s) əli ilə işarə edərək bildirdi ki, o yerində qalsın. Bunu görən Əbu Bəkr (r.a) əllərini göyə qaldıraraq, Peyğəmbərin (s.a.s) bu istəyinə görə Allaha həmd səna etdi və yavaş-yavaş

arxaya çəkilib birinci səfdə yer aldı. Peyğəmbər (s.a.s) isə önə keçib, namazı tamamladı. Namazı bitirdikdən sonra o, Əbu Bəkrə (r.a) dönüb, dedi:

- “Ey Əbu Bəkr! Mənim sənə işarə etməyimə baxmayaraq, sənə nə mane oldu ki, yerində qalmadın?”

- Əbu Bəkr (r.a) dedi: “Əbu Kuhafənin oğluna Allah Elçisinin önündə namaz qılmaq yaraşmaz.”

Onda Peyğəmbər (s.a.s) insanlara dönərək dedi: “Siz niyə görə bu qədər əllərinizi biləklərinizə vuraraq, bu qədər səs çıxartdız?! Sizlərdən kimsə namaz əsnasında xoşa gəlməyən bir şey görsə, qoy desin: “Subhənallah” Əllə səsə gəldikdə isə bu qadınlar üçündür.” Zubeydi, “Müxtəsər səhih əl Buxari” №385,684

43) Səhih Buxaridə varid olan hədisdə deyilir ki, bir dəfə Əbu Bəkr (r.a) Peyğəmbərin (s.a.s) yanına o namazda rukuda olarkən gəldi və namazda olanlara qoşulmadan rukuya getdi. Sonra bunu o Peyğəmbərə (s.a.s) danışdı. O, isə öz növbəsində dedi: “Allah sənin xeyrə olan meylini artırsın. Lakin, belə etmək düzgün deyil.” Zubəydi, “Müxtəsər səhih əl Buxari”, №425,783

44) İbn Ömər (r.a) demişdir: “Peyğəmbərin (s.a.s) zamanında biz ondan sonra bu ümmətdə ən fəzilətli insanların Əbu Bəkr, Ömər, Osman olduqlarını deyərdik.”

Əbu Davud, “Sünən” №4628; Tirmizi, “Sünən” №3707; imam Əhməd, “Səhabələrin fəziləti”c.1,№55

45) İmam Buxari Ənəsdən (r.a) rəvayyət edir ki, Peyğəmbər (s.a.s), Əbu Bəkr və Ömər hər zaman namazlarını bu sözlərlə başlayardılar: “Əlhəmdu lilləhi rabbil aləmin.” Zubeydi, “Müxtəsər səhih əl Buxari” № 404,743

46) İmam Buxari “Səhih” kitabında ibn Abbasdan (r.a) rəvayyət edir: "Mən Peyğəmbər (s.a.s), Əbu Bəkr, Ömər, Osmanın qıldırdıqları bayram namazlarında iştirak etmişdim.Onların hamısı namazı xütbədən öncə qılardılar.” Zubeydi, “Müxtəsər səhih əl Buxari” № 504, 962

47) İmam Buxari Aişədən (r.a) rəvayyət edir ki, Peyğəmbər (s.a.s) Məkkəyə ilk gəlincə dəstəmaz aldı və Kəbəni təvaf etdi. Lakin, bu ümrə deyildi. Daha sonra Əbu Bəkr (r.a) və Ömər (r.a) Həcc edərkən bu qayda ilə əməl etdilər.” Zubeydi, “Müxtəsər səhih əl Buxari” № 776 ,1614, 1615

48) İmam Buxari “Səhih” kitabında Əbu Hureyrədən (r.a) rəvayyət edir ki, sonuncu vida həccindən əvvəl Əbu Bəkr həcc qafiləsinə rəhbər təyin olunduğu vaxt Peyğəmbər (s.a.s) onunla bərabər bir neçə səhabəni Tövbə surəsinin bəzi ayələrini müsəlmanlara çatdırmaq üçün göndərilmişdi.”

Zubeydi, “Müxtəsər səhih əl Buxari” № 779 ,1622

49) İmam Sufyan əs Sevri dedi: “Əlinin (r.a) ondan əvvəl xəlifə olanlardan daha çox xilafətə haqqı olduğunu iddia edən şəxs bununla Əbu Bəkr, Ömər, mühacir və

ənsarları günahlandırmış olur. Mən güman etmirəm ki, belə adamın əməlləri səmaya qalxsın.” Əbu Davud, “Sünən”№ 4630; İbn Əsakir, “Tarix Dəməşq”,44/384

Şeyx Albani bu sözün haşiyəsində yazır ki, ”əsərin ravilər silsiləsi səhihdir.”

50) İmam Buxari Əbu Hureyrənin (r.a) Peyğəmbərdən (s.a.s) belə eşitdiyini rəvayyət edir: "Kim bu saleh əməllərdən ikisini Allah yolunda edərsə cənnətin qapılarından: "Ey Allahın qulu bu qapı xeyirlidir!" deyərək çağrılar. Kim namaz qılanlardan olarsa namaz qapısından çağırılar. Kim cihad edənlərdəndirsə cihad qapısından çağırılar. Kim sədəqə verənlərdəndirsə sədəqə qapısından çağırılar. Kim oruc tutanlardandırsa Rəyyan qapısından çağrılar"

Əbu Bəkr dedi: Ey Allahın elçisi! Kimsə bu qapıların hamısından çağırılacaqmı?!

Peyğəmbər (s.a.s) dedi: "Bəli, ümid edirəm ki, sən onlardan olasan, Ey Əbu Bəkr!" deyərək cavab verdi.” Səhih əl Buxari, “Kitab Fədailus Səhabə”, № 3666

51) Səhih Buxaridə Cabir ibn Abdullahdan (r.a) rəvayyət olunur:

”Bir dəfə Peyğəmbər (s.a.s) mənə dedi: “Əgər Bəhreyndən malı gətirsələrdi sənə filan qədər verərdim.” Lakin, Peyğəmbərin (s.a.s) zamanında Bəhreyndən bu mallar gəlib, çıxmadı. Əbu Bəkr (r.a) zamanında bu mallar Mədinəyə gəldikdə elan etdilər ki, Peyğəmbərin (s.a.s) kiməsə pul, mal verəcəyini söz verdiyi adamlar yanımıza gəlsinlər. Mən Əbu Bəkrin (r.a) yanına gəldim və dedim: “Həqiqətən Peyğəmbər (s.a.s) mənə filan qədər pul verəcəyini vəd etmişdi.” Onda Əbu Bəkr (r.a) mənim üçün kisədən dinarları boşaltdı. Mən 500 dinar saydım.O, isə mənə dedi: “Bundan iki dəfədən də çox götürə bilərsən.” Zubeydi, “Müxtəsər səhih əl Buxari” №1011,2296

52) Peyğəmbər (s.a.s) Şamın şərqini fəth etmək üçün ordu hazırlayır və Usamə bin Zeydi (r.a) bu orduya başçı təyin edir. Qoşun Mədinədən çıxmazdan əvvəl Peyğəmbər (s.a.s) vəfat edir. Bir çox səhabələr bu ordunu Usamənin (çox gənc, 17 yaşında olduğundan) başçılığı ilə göndərilməsinə etirazını bildirirlər. Eyni zamanda Mədinəyə ola biləcək hücumdan ehtiyyatlanaraq ordunun şəhərdə qalmasını israr edirdilər. Lakin, Əbu Bəkr (r.a) Peyğəmbərin (s.a.s.) əmrini yerinə yetirərək, qoşuna məhz Usamənin başçılığı ilə Şama getməyi əmr edərək deyir:

“Özündən başqa ilah olmayan Allaha and olsun ki, Peyğəmbərin (s.a.s) bağladığı düyünü mən heç vaxt açа bilmərəm! Əgər quş bizim başımızın üstünü kəssə, vəhşi heyvanlar ətrafımızı bürüsə, itlər belə möminlərin analarının ayaqlarına dolaşsalar da Usamənin qoşununu mütləq hazırlayar və Mədinənin kənarına gözətçilər təyin edərəm.”

Bəzi səhabələr Ömər ibn Xəttabı (r.a) Əbu Bəkrin (r.a) yanına onun bu fikirdən daşındırmaq üçün göndərdilər. Onlarına arasında keçən dialoqda axırda Əbu Bəkr (r.a) Ömərin (r.a) saqqalından tutaraq deyir:

“Anan səni itirsin! Rəsulullahın (s.a.s) bağladığı bayrağı deyirsən mən açım?!” Ömər (r.a) bu təşəbbüsündən dolayı çox peşman oldu.”

📚 Təbəri, “Tarix” c.2, səh 245;İbn Cəuzi,“Muntəzəm” c.5,səh 74-də Hişam ibn Urvəyə istinadən; İmam Zəhəbi, “Tarix” c.5,səh 31-33

Beləliklə, bu qoşun öhdəsinə düşəni yerinə yetirərək zəfərlə geri qayıtdı.

53) İmam Sufyan əs Səvri dedi: “Xəlifələr beşdir: “Əbu Bəkr, Ömər, Osman, Əli, Ömər ibn Əbduləziz.” 📚 Əbu Davud, “Sünən”№4631

İmam Nəvəvi bu əsərin ravilər silsiləsinin səhih olduğunu yazmışdır.”

📚 “Təhzib əsma və luğət”, c.3,səh 64

54) Səhih Buxaridə Aişədən (r.a) rəvayyət olunan uzun bir hədisdə deyilir:

“Mən uşaq ikən xatırladığım qədər valideynlərim həmişə bu dinə qulluq ediblər və elə bir gün olmurdu ki, həmin günün səhəri və axşamı Peyğəmbər (s.a.s) bizə gəlməsin. Müsəlmanlar Məkkədə sıxıntılara məruz qaldıqda Əbu Bəkr Həbəşistna hicrət etməli olur. O, Bərq əl Qimad məntəqəsinə çatdıqda onu qəbilə başçısı əl Kara ibn əd Dəqina qarşılayır və soruşur:

- “Ey Əbu Bəkr! Sən hara gedirsən?!”

- Əbu Bəkr (r.a) dedi: “Mənim qövmüm məni qovdu və mən yer üzündə gəzib, Allaha ibadət etmək istəyirəm.”

- İbn əd Dəqina dedi: “Həqiqətən sənin kimi insan qovulmamalı, nə də yurdunu tərk etməməlidir. Sən kimsəsizlərə, zəiflərə əl tutur, qonaqpərvərlik göstərir və qohumluq əlaqələrini gözləyirsən. Mən səni öz himayəmə alıram. Evinə qayıt və Rəbbinə öz şəhərində ibadət et.”

Beləcə Əbu Bəkr və ibn Dəqina birlikdə Məkkəyə qayıtdılar. Məkkədə ibn Dəqina gecə vaxtı bütün nüfuzlu Qüreyşliləri ziyarət etdi və onlara dedi:

- “Həqiqətən Əbu Bəkr kimi insan nə öz şəhərini tərk edəsi, nə də qovulmalı adam deyildir. Məgər siz zəiflərə, kimsəsizlərə əl tutan, qohumluq əlaqələrini gözləyən, qonaqpərvərlik göstərən bir adamı qovmaq qərarına gəlmisiz?”

Beləcə Qureyşlilər onun himayədarlığını inkar etmədilər amma, ona dedilər:

-“Əbu Bəkrə söylə ki, Rəbbinə öz evində ibadət etsin. O, öz evində rahat ibadət edib, istədiyini oxuya bilər. Lakin, qoy o bunu aşkarda etməsin və bununla bizi qıcıqlandırmasın. Biz onun bununla bizim qadınlarımızı və uşaqlarımızı azdıra biləcəyindən ehtiyyat edirik.”

İbn Dəqina bunu Əbu Bəkrə çatdırdı və Əbu Bəkr bir müddət yalnız evində namaz qılıb, Quran oxumaqla məşğul oldu. Lakin, sonra Əbu Bəkrin ağlına belə fikir gəldi ki, həyətində məscid tiksin və beləcə o bu məsciddə namaz qılıb, Quran oxumağa başladı. Bunu görən Məkkə qadınları və uşaqları isə onu kənardan izləməyə başladılar.

Əbu Bəkr adətən Quran oxuyanda ağlayırdı və göz yaşlarını saxlaya bilmirdi. Bu hal Qureyşdən olan müşrikləri qıcıqlandırırdı və onlar ibn Dəqinanın yanına adam göndərdilər. İbn Dəqina onların yanına gəldikdə onlar ona dedilər:

“Biz sənin Əbu Bəkrə hami olmağını yalnız o şərtlə qəbul etmişdik ki, o öz evində ibadət edib, Quran oxuyacaqdır. Lakin, Əbu Bəkr bu şərti pozdu və həyətində məscid tikib, aşkarda orada ibadət etməyə başladı. Biz onun bizim zəiflərimizi azdıracağından ehtiyyat edirik. Ona de ki, buna son versin. Əgər o evində gizli ibadət edəcəksə, qoy etsin.Yox əgər buna razı deyilsə, ona söylə ki, sənin himayədarlığından imtina etsin. Çünki, biz sənə hörmətsizlik etmək istəmirik. Eyni zamanda da onun belə meydan oxumağına razı ola bilmərik.”

Aişə (r.a) davam edərək deyir:

“İbn Dəqina Əbu Bəkrin yanına gəlib, dedi: “Sənə mənim onlarla hansı şərtlərlə razılaşdığım məlumdur. Ona görə də ya sən şərtə əməl etməlisən, ya da mənim himayədarlığımdan imtina etməlisən. Mən istəmirəm ki, mənim imzaladığım sazişin pozulmasını bütün ərəblər bilsin.”

Onda Əbu Bəkr dedi:

- “Həqiqətən sənin mənim üzərimdə olan hamilik öhdəliklərindən səni azad edirəm. Mənə Uca Allahın himayədarlığı kifayətdir.”

Bu sırada Peyğəmbər (s.a.s) Məkkədə idi və o müsəlmanlara dedi:

- “Həqiqətən, mən yuxuda sizin hansı yerə köçəcəyinizi gördüm. Orada xurma ağacları yetişir və o şəhər iki dağın əhatəsindədir.”

Bundan sonra bəzi müsəlmanlar Mədinəyə hicrət etməyə başladılar. Öncələri Həbəşistana hicrət edənlərin çoxu isə artıq Mədinəyə qayıdırdı.

Əbu Bəkr də həmçinin Mədinəyə hicrət etməyə hazırlaşırdı. Lakin, Rəsulullah (s.a.s) ona dedi:

- “Tələsmə. Mən güman edirəm ki, mənə də hicrət etməyə izn veriləcəkdir.”

Beləcə Əbu Bəkr dörd ay Peyğəmbəri (s.a.s) müşayət etmək üçün Məkkədə onunla qaldı. Bunun üçün iki dəvəsini ayırdı və onların qayğısına qalmağa başladı.

Aişə (r.a) davam edərək deyir: “Bir gün günorta biz evdə olarkən, kimsə Əbu Bəkrə dedi: “Bax!Peyğəmbər (s.a.s) üzünü bağlayaraq gedir.” Bu vaxtlar adətən o bizə gəlmirdi.”

Əbu Bəkr (r.a) dedi:

-“Atam,anam ona fəda olsun. Allaha and olsun ki, bu vaxt onu bizə gəlməyə hansısa ehtiyyac vadar etmişdir.”

Birazdan Peyğəmbər (s.a.s) evə yaxınlaşdı və içəri girmək üçün izn istədi. O, evə girdi və Əbu Bəkrə (r.a) dedi:

- “Evdə kim varsa çıxmalarını əmr elə.”

Əbu Bəkr (r.a) dedi:

- “Burda ailə üzvlərindən başqa heç kim yoxdur ya Rəsulullah!”

Peyğəmbər (s.a.s) dedi:

-“Mənim hicrət etməyimə izn verildi.”

Əbu Bəkr (r.a) dedi:

- “Atam, anam sənə fəda olsun!Mən səni müşayiət edəcəyəm?!”

Peyğəmbər (s.a.s) dedi:

“Bəli.”

Əbu Bəkr (r.a) dedi:

- “Atam, anam sənə fəda olsun! Bu dəvələrdən birini özünə götür.”

Peyğəmbər (s.a.s) dedi:

- “Mən onu alacam amma, satın olaraq.”

Biz beləcə onları azuqələri ilə birgə yola saldıq. Bundan sonra Peyğəmbər (s.a.s) Əbu Bəkrlə birgə Sevr dağında üç gün qaldı və onlarla bərabər o vaxtlar yeniyetmə olan Əbu Bəkrin (r.a) oğlu Abdullah da onlarla qaldı. Əbu Bəkrin oğlu Abdullah gündüzləri Qureyş arasında gəzir, dolanır, gecələri onlara xəbər aparırdı. O, qayıtdıqdan sonra Əbu Bəkrin köləsi Amir ibni Fuheyrə qoyunları o tərəfə sürür, həm Abdullahın izlərini itirir, həm də mağaradakılara süd verirdi. Onlar mağarada üç gün qaldılar.”

Qureyş müşriklərinin göndərdikləri elçi, Mudlic oğulları yurduna çatıb Peyğəmbər (s.a.s), Əbu Bəkrdən hər birini öldürən vəya əsir alan kimsəyə mükafat olaraq yüz dəvə veriləcəyini vəd etmişdilər.

Suraka bin Malik Mudlic oğullarının məclislərindən birində oturduğu zaman, Mudlic oğullarından bir adam gəlib ona dedi:

“Ey Suraka! Mən bir az öncə, sahilə doğru gedən bir neçə yolçu gördüm. Hesab edirəm ki, onlar Muhəmməd ilə əshabıdır”

Suraka adamın gördüklərinin Peyğəmbər (s.a.s) ilə əshabı olduğunu anlamışdı. Fəqət adama gözü ilə sus deyə işarə etdikdən sonra, sənin gördüyün yolçular onlar deyil. Hər halda sən başqa adamları görmüsən” dedi.

Suraka məclisdə bir az əyləşdikdən sonra evinə getdi. Cariyəsinə onun atını hazırlayıb, təpənin arxasında onu gözləməsini əmr etdi. Zirehini geyinib silahını götürdü. Fal oxunu çıxarıb, bu səfərin ona zərər verib verməyəcəyini anlamaq üçün fal oxunu atdı. Xoşlamadığı ona zərər verə biləcək ox çıxdı. Buna baxmayaraq yüz dəvə əldə edəcəyi ümüdi ilə yola çıxdı. Məqsədinə çatmaq üçün atı dördnalla çapırdı.

Peyğəmbər (s.a.s) ilə Əbu Bəkri (r.a) nəhayət üfüqdə gördü. Səslərini eşidəcək qədər onlara yaxınlaşmışdı. Əbu Bəkr tez-tez, dönüb arxaya baxırdı.

Surakənin atı onlara yaxınlaşınca birdən at yerə büdrədi. Suraka atın üzərindən yerə yuvarlandı. Tez qalxıb, əlini fal oxu torbasına uzadıb ondan fal qələmlərini çıxartdı. Fal pis göstərdi. Ancaq məqsədinə çatmaq üçün var qüvvəsi ilə atını mahmızlayaraq irəli atılmaq istədi. Ancaq atının ayaqları quma quylandı. At özünü saxlaya bilmədi, çabalamağa başladı. Çabaladıqca ayaqları quma batdı. Bunlara baxmayaraq yenə onlara tərəf getməyə başladı. Aralarındakı məsafə çox az qalmışdı. Suraka nə qədər çalışsada atın ayaqları qumdan çıxmadı. Bütün bunları görüncə Peyğəmbərin (s.a.s) Allah tərəfindən qorunduğunu anladı.

Suraka etdiklərinə peşman olaraq Peyğəmbərə (s.a.s) səsləndi:

- “Mən Suraka bin Cuşumam. Vallahi, mən artıq sizə nə əziyyət edəcəyəm, nə də məndən sizə bir zərər gələcək. Ya Muhəmməd anladım ki, bu sənin işindir. Dua et ki, Allah məni bu düşdüyüm vəziyyətdən qurtarsın. Vallahi arxanızdan gələnlərə sizin haqqınızda məlumat verməyəcəyəm.”

Peyğəmbər (s.a.s) Allaha dua etdi və at ayağa qalxdı. Suraka Peyğəmbərə (s.a.s) dedi: “Qövmün sənin öldürülmən vəya əsir edilmən üçün mükafat vəd etdi”

Onlara yol azuqəsi vermək istədisədə ondan bir şey almadılar.

Peyğəmbər (s.a.s) ondan soruşdu bizdən bir istəyin varmı?!

Suraka: “Sənlə mənim aramda bir əlamət olsun deyə mənə bir fərman ver.”

Rəsulullah (s.a.s) ona “bizim haqqımızda heç kimə bir söz demə” dedi və Amr bin Fuheyrəyə əmr etdi. Amr da fərmanı dəri parçasına yazıb, ona verdi.

Bu arada Mədinə xalqı hər səhər şəhərin kənarına çıxıb, günortaya qədər yollara baxırdılar. Günorta istisi aləmi alovlara qərq edəndə bu istidə artıq gəlməz, deyərək gözləməkdən əl çəkiərdilər.

Bir gün yenə şəhərə qayıtdıqları zaman, bir qalanın təpəsində dayanan bir yəhudi qız ilk müjdəni verdi:

“Həsrətini çəkdiyiniz, yolunu gözlədiyiniz gəlir, dedi. Bu xəbər bir ildırım sürətilə xalq arasına yayıldı. Şəhər başdan ayağa sevinc ilə çalxalandı. Hamısı şəhərin kənarına qaçıb gözlərini üfüqə dikdilər. Uzaqdan ağ paltarlı iki adam görsənirdi……”

Zubeydi, “Müxtəsər səhih əl Buxari”,№ 1517,3905

55) İmam Buxari yazır: “Əbu Bəkr (r.a) dedi: “Peyğəmbər (s.a.s) ilə birgə mağarada olarkən, mən başımı qaldırıb bizi axtaran adamların ayaqlarını gördüm və dedim:

“Ya Rasulullah! Əgər onlardan biri aşağıya baxsa bizi görəcək.”

Onda Peyğəmbər (s.a.s) dedi: “Sakit ol ya Əbu Bəkr! Biz axı üçüncüsü Allah olan iki nəfərik.” Zubeydi, “Müxtəsər səhih əl Buxari”, № 1519,3922

Bununla əlaqədar olaraq Allah Təala ayə nazil etdi:

“Əgər siz Peyğəmbərə kömək etməsəniz, bilin ki, Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq Məkkədən çıxartdılar. O iki nəfər mağarada olarkən onlardan biri öz yoldaşına (Əbu Bəkrə) dedi: "Qəm yemə, Allah bizimlədir!" Bundan sonra Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allahın Sözü ucadır. Allah Qüdrətlidir, Müdrikdir.” (Tövbə 40)

56) İmam Buxari Abdullah ibn Ömərdən (r.a) rəvayyət edir ki, Peyğəmbər (s.a.s) buyurdu: “Mən yuxuda ikən, bir qrup insanın bir yüksəklikdə toplandıqlarını gördüm. Sonra Əbu Bəkr yerindən qalxdı və quyudan bir və ya iki vedrə su çəkdi. Amma, onun bəzi hərəkətlərində zəiflik sezilirdi, Allah onu əhv etsin. Sonra bu vedrəni Ömər aldı və onun əlində bu sanki böyük bir çənə çevrildi. Mən insanlardan onun kimi qüvvətli olanı görmədim. Bu hal insanların hamısının dəvələri ilə birgə su içib, doyduqlarına qədər davam etdi.” Zubeydi, “Müxtəsər səhih əl Buxari”, № 1445,3634

Qeyd: Bu yuxu peyğəmbərlik möcüzəsi olub, gələcəkdə olacaq xilafət işlərinə işarə idi.

57) Buxari “Səhih” əsərində Əmmardan (r.a) rəvayyət edir:

"Mən Peyğəmbəri (s.a.s) beş kölə, iki qadın və Əbu Bəkrdən başqa yanında heç kimin olmadığı vaxtlar görmüşəm.” Zubeydi, “Müxtəsər səhih əl Buxari” № 1450,3660

58) İmam Buxari Əbu Dərdadan (r.a) rəvayyət edir:

“Mən bir gün Peyğəmbər (s.a.s) ilə oturduğum zaman Əbu Bəkr (r.a) gəldi. Peyğəmbər (s.a.s) dedi: “Sizin bu yoldaşınız kiminləsə mübahisə edib.”

Əbu Bəkr (r.a) dedi:

“Mən Ömər ibn Xəttabla mübahisə etdim və sonra onunla sərt danışdığıma görə peşman oldum. Ondan üzr istədim amma, o mənim üzrümü qəbul etmədi və mən evimə getdim.”

Onu eşidən Peyğəmbər (s.a.s) üç dəfə dedi: “Allah səni əhv etsin ya Əbu Bəkr!”

Sonra Ömər (r.a) etdiklərindən peşman oldu və Əbu Bəkrin (r.a) evinə getdi amma, o evdə yox idi. Onda o Peyğəmbərin (s.a.s) yanına gəldi və orada olanları salamladı. Bu arada Peyğəmbərin (s.a.s) üzündə narazılıq işarələri görüldü. Bunu görən Əbu Bəkr (r.a) diz çökərək, iki dəfə dedi:

“Ya Rasulullah! Mən ondan daha haqqsız olmuşam.”

Peyğəmbər (s.a.s) isə buyurdu: “Həqiqətən Allah Təala məni göndərdikdə siz ilk öncə “sən yalan danışırsan” deyirdiz.

Əbu Bəkr isə deyirdi:

“O,doğru danışır.” O, məni hər şeyi ilə dəstəklədi və mənə görə malından-dövlətindən keçdi.”

Sonra Rəsulullah (s.a.s) iki dəfə buyurdu: “Mənim dostumu incitməkdən əl çəkməyəcəksiniz?” Bundan sonra heç kəs Əbu Bəkrin xətrinə toxunmazdı.”

Zubeydi, “Müxtəsər səhih əl Buxari”,№ 1451,3661

59) İmam Buxari Urvə ibn Zubeyrin (r.a) belə dediyini rəvayyət edir:

“Bir dəfə mən Abdullah ibn Amr ibn Asdan (r.a) soruşdum: “Mənə müşriklərin Peyğəmbərə (s.a.s) etdikləri ən pis əziyyət haqqında danış.”

- O dedi: “Bir gün Peyğəmbər (s.a.s) Kəbədə ibadət edirdi. Bu zaman Uqbə ibn Əbu Muəyt ona arxadan yaxınlaşıb, onun boğazına paltarını atdı və onu əzməyə başladı. Bunu görən Əbu Bəkr (r.a) onun üzərinə cumdu, yaxasından tutub, kənara itələdi və dedi:

- “Siz mənim Rəbbim Allahdır” deyən adamı öldürmək istəyirsiz?!” Zubeydi, “Müxtəsər səhih əl Buxari”, № 1506,3856

60) İmam Buxari Misvar ibn Məhrəmədən (r.a) rəvayyət edir: “Hudeybiyyə ili Peyğəmbər (s.a.s) min nəfər səhabəsi ilə Mədinədən çıxdı. ”Zul huləf” məntəqəsinə çatdıqda, o qurbanlıq heyvanları işarələdi və ümrə həcci üçün ehrama girdi. Daha sonra səhabələrindən birini kəşfiyyat üçün irəliyə göndərdi. Bundan sonra Peyğəmbər (s.a.s) yola düzəldi. Əştat kəndində olan quyunun yanına gəldikdə, göndərdiyi kəşfiyyatçı qayıtdı və dedi:

“Həqiqətən Qureyşlilər sizə qarşı çoxlu adam toplamışlar. Onlar bizə qarşı bəzi qəbilələrin müttəfiqliyini alaraq, onlardan bizə qarşı istifadə etməklə bizim Məkkəyə getməyimizə mane olmaq istəyirlər.”

Peyğəmbər (s.a.s) dedi:

“Ey insanlar! Mənə məsləhət verin. Siz hesab edirsinizmi ki, bizim yolumuzu kəsənləri öldürməliyk?!”

Əbu Bəkr (r.a) dedi:

“Ey Allahın Elçisi! Biz yola yalnız Kəbəyə görə yolda heç kəslə döyüşməmək niyyəti ilə çıxmışıq, yolumuza davam edək. Əgər kimsə yolumuzu kəsmək istəsə, biz onlarla döyüşərik.” Peyğəmbər (s.a.s) dedi: “Allahın adı ilə yolumuza davam.”

Zubeydi, “Müxtəsər səhih əl Buxari”, № 1564,4178-4179

61) Abdullah ibn Şəqiq (r.a) möminlərin anası Aişədən (r.a) soruşdu: “Allah elçisinin (s.a.s) hansı səhabəsi onun üçün daha sevimli idi?”

- Aişə (r.a) dedi: “Əbu Bəkr”

- Ravi soruşdu: “Sonra kim?”

- Aişə (r.a) dedi: “Ömər”

Yenə soruşdum: “Sonra kim?”

Aişə (r.a) dedi: “Əbu Ubeyda ibn Cərrah”

📚 Tirmizi, “Sünən”, №3657. İmam Tirmizi qeyd edir ki, hədis “həsən-səhihdir”

İmam Nəvəvi bu hədisi ibn Macə, Nəsai, Tirmizi və ibn Hibbana istinadən nəql etmişdir.📚 “Təhzib əsma və luğət”, c.3,səh 62; ibn Hibban, “Səhih”, №6998.

Şeyx Şueyb Arnaut yazır: ”Hədisin ravilər silsiləsi Muslimin şərtlərinə müvafiqdir.”

62) İmam Buxari Sələmə ibn əl Əqvadan (r.a) rəvayyət edir:

“Mən Peyğəmbər (s.a.s) ilə birgə yeddi hərbi səfərdə və onun iştirak etmədiyi doqquz hərbi səfərdə olmuşdum. Bu səfərlərdə Peyğəmbər (s.a.s) sıra ilə Əbu Bəkr (r.a) vəya Usamə ibn Zeydi (r.a) komandir təyin edərdi.” 📚 Zubeydi, “Müxtəsər səhih əl Buxari”, № 1582,4270

63) İmam Buxari Urvədən (r.a) rəvayyət edir: “Peyğəmbər (s.a.s) Əbu Bəkrdən (r.a) Aişəni (r.a) istədikdə Əbu Bəkr (r.a) ona dedi:

- “Mən axı sənin qardaşınam.”

- Peyğəmbər (s.a.s) isə dedi:

- “Sən mənim yalnız dində olan qardaşımsan.”

📚 Zubeydi, “Müxtəsər səhih əl Buxari”, № 1747,5081

64) “Bir gün Peyğəmbər (s.a.s) üzünü səhabələrə tutaraq, soruşdu: "Hansı biriniz bu gün oruc tutub?"

Əbu Bəkr (r.a) "mən" deyə cavab verdi.

Peyğəmbər (s.a.s) yenə soruşdu: "Hansı biriniz bu gün cənazəni təqib edib?"

Əbu Bəkr (r.a) "mən" deyə cavab verdi.

Peyğəmbər (s.a.s) yenə soruşdu: "Hansı biriniz bu gün kasıbı yedizdirib?"

Əbu Bəkr (r.a) "mən" deyə cavab verdi. Peyğəmbər (s.a.s) yenə soruşdu:

"Hansı biriniz bu gün xəstəni ziyarət edib?" Əbu Bəkr (r.a) "mən" deyə cavab verdi. Peyğəmbər (s.a.s) dedi: "Bu dörd gözəl xisləti özündə cəm edən cənnətə daxil olar."

📚 “Səhih Muslim”, c.15,səh 151, 6132-ci hədis

65) Ömər ibn Xəttab (r.a) deyir ki, Peyğəmbər (s.a.s) bizə sədəqə verməyi əmr edəndə mənim əlimdə biraz mal var idi. Mən düşündüm ki, Əbu Bəkri (r.a) keçəsi olsam, yalnız bugün keçə bilərəm.Mən sədəqə olaraq malımın yarısını gətirdim. Peyğəmbər (s.a.s) soruşdu: “Sən öz ailənə nə saxladın?!”

Mən dedim: “Malımın yarısını”

Bunun ardınca Əbu Bəkr (r.a) gəldi və malının hamısını gətirdi. Peyğəmbər (s.a.s) ona dedi: “Sən öz ailənə nə saxladın?!”

Əbu Bəkr (r.a) dedi: “Allahı və onun elçisini.”

Bundan heyrətlənərək, özüm-özümə dedim:

“Mən heç vaxt, heç bir şeydə onu qabaqlaya bilmərəm.”

Əbu Davud, “Sünən”, №1678; Rudani “Camiul fəvaid”, c.5, №8610; Beyhəqi, “Sünən əl kubra” №7563; Darimi, “Sünən” №1667; İmam Bəzzar, “Müsnəd”, №270; Hakim, “Müstədrək” №1510

66) İmam Muslim Ənəsdən (r.a) rəvayyət edir ki, Peyğəmbərin (s.a.s) vəfatından sonra Əbu Bəkr (r.a) Ömərə (r.a) dedi:

“Gəl bizimlə umm Əymənin yanına gedək, necə ki, bir vaxtlar Peyğəmbər (s.a.s) onu ziyarət edərdi.”

Onlar Umm Əymənin yanına gəldikdə qadın ağlamağa başladı. Onlar soruşdular:

“Səni ağladan nədir? Məgər sən bilmirsən ki, Allah Rəsulu (s.a.s) üçün Allah dərgahı daha xeyirlidir?!”

Qadın dedi: “Mən ona görə ağlamıram ki, Peyğəmbərə (s.a.s) Allah qatında daha xeyirdə olmasını bilmirəm. Ona görə ağlayıram ki, artıq səmadan gələn vəhy bitib.”

Bu söz onlara elə təsir etdi ki, Əbu Bəkr (r.a) və Ömər (r.a) qadınla bərabər ağlamağa başladılar.” “Səhih Muslim”, İmam Nəvəvi, “Riyadus salihin” №452

67) Aişə (r.a) rəvayyət edir: “Peyğəmbər (s.a.s) vəfat etdikdə Əbu Bəkr (r.a) Sunhda (Peyğəmbər məsçidindən bir mil uzaqda yerləşən məntəqə) idi. Ömər (r.a) səhabələrə xitab edib, dedi:

- Allaha and olsun ki, Peyğəmbər (s.a.s) ölməyib, Allah onu qaytaracaq. Bu vaxt Əbu Bəkr (r.a) gəldi, onun üzünü açıb, öpdü və dedi:

- “Atam-anam sənə fəda olsun! Sağlığında da, öləndən sonra da səndən gözəl qoxu gəlir. Nəfsim əlində olan Allaha and olsun kı, O sənə ölümü iki dəfə dadızdırmaz.”

Sonra Ömərə (r.a) oturmağı əmr etdi və üzünü səhabələrə tutub, Allaha həmd-səna etdikdən sonra dedi:

- “Kim Muhəmmədə ibadət edirdisə bilsin kı, artıq o vəfat etmışdir. Kim Allaha ibadət edirsə, bilsin ki, Allah əbədi və ölməzdir”.

Və bu ayəni oxudu: "(Ya Peyğəmbər!) Şübhəsiz ki, sən də öləcəksən, onlar da öləcəklər" (Zumər 30)

"Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də elçilər gəlib-getmişlər. Əgər o ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz? Halbuki, geri dönən şəxs Allaha heç bir zərər yetirməz. Lakin, Allah şükr edənlərə mükafat verər". (Ali İmran 144)

Bu ayələri oxuduqdan sonra səhabələr ağladı.”

Ənəs (r.a) həmin bu mənzərəni xatırlayaraq, deyir: "Sanki, biz bu ayələri (elə bir halda idik) heç vaxt eşitməmişdik!" 📚 “Səhih Buxari”, 7/23, 3667, 3668-ci hədislər

68) İmam Buxari “Səhih” əsərində Aişədən (r.a) rəvayyət edir: “Əbu Bəkrin (r.a) ona müntəzəm olaraq ərzaq gətirən köləsi var idi və o onun gətirdiyi ərzaq, qidaları yeyərdi. Bir dəfə bu kölə Əbu Bəkrə (r.a) qida gətirdi və o bunu yedi. Sonra kölə ona dedi: “Bilirsən bu nədir?”Əbu Bəkr (r.a) dedi: “Nədir?!”

Kölə dedi: “Cahiliyyə dövründə mən bir adamın falına baxmışdım. Halbuki, onları aldadırdım və bilmədiklərimi deyirdim. Həmin adam məni bu yaxınlarda gördü və sənin indi yediyini mənə verdi.” Bunu eşidən Əbu Bəkr (r.a) əlini ağzına aparıb, yediklərinin hamısını qaytardı.”

📚 “Səhih Buxari”, №26; İmam Nəvəvi “Riyadus salihin” №594; imam Əhməd, “Zühd kitabı”c.1,səh 164,№565

Suddi qeyd edir ki, bu hadisə bu ayənin nazil olmasına səbəb olmuşdur:

“Ancaq kim Rəbbinin hüzuruna gələcəyindən qorxmuş və nəfsinə ehtirası yasaq etmişsə, həqiqətən, Cənnət onun məskəni olacaqdır.” (Naziat 40-41)

📚 “Əsbab ən nuzul", c.2,səh 933; Qurtubi, “Camiul əhkam”, c.18,səh 392

69) Həsən (r.a) rəvayyət edir ki, Əbu Bəkr (r.a) ölüm ayağında olanda Salman Farsi (r.a) onun yanına gələrək, dedi: “Ey Rəsulullahın (s.a.s) xəlifəsi! "Mənə bir nəsihət edəcəksənmi?” Əbu Bəkr (r.a) dedi: “Uca və Əzəmətli olan Allah sizə dünya nemətlərini təqdim edəcəkdir. Ondan ancaq sizin haqqınız olan qədər götürün. Sübh namazını qılan Uca Allahın himayəsi altında olacaqdır. Allahın himayədarlığı haqqında olan beyətini pozmayın.” 📚 İmam Əhməd, “Zühd kitabı”, c.1,səh 164, №565

70) İmam Hakim ibn Həzm Aişədən (r.a) rəvayyət edir: “Allaha and olsun ki, Əbu Bəkr (r.a) özündən sonra nə bir dinar, nə də bir dirhəm miras qoymadı.” 📚 İmam Əhməd, “Zühd kitabı”, c.1,səh,səh 163, №563

Digər mətndə isə deyilir: “Əbu Bəkr (r.a) ölüm qabağı bütün malını alıb, beytul mala keçirdi.” 📚 İmam Əhməd, “Zühd kitabı”, c.1,səh 166, №574

71) Bir gün Əli (r.a) insanlardan soruşdu: “İnsanlardan kimin daha çox qəhrəman olduğunu deyə bilərsizmi?!”

İnsanlar dedilər: “Bu sənsən ey möminlərin əmiri.”

Əli (r.a) dedi: “Bu doğrudur ki, mən kiminlə döyüşmüşəmsə onun aqibəti pis olub. Lakin, söhbət bundan getmir.”

Deyin görüm: “İnsanlardan kim daha şücaətlidir?” İnsanlar dedilər ki, biz bilmirik.

Əli (r.a) dedi: “Bu Əbu Bəkrdir, Bədr döyüşü günü biz Peyğəmbər (s.a.s) üçün çadır düzəltmişdik. Məsələ qalxdı ki, Peyğəmbəri (s.a.s) əgər müşriklərdən biri ona hücum edərsə, onu kim qoruyacaq?

Allaha and olsun ki, Əbu Bəkrdən (r.a) başqa heç kəs bu çağırışa səs vermədi. O, qılıncını sıyıraraq, Peyğəmbərin (s.a.s) önündə dayanırdı. Bu Əbu Bəkr (r.a) idi ki, müşriklərdən biri ona hücum etmək istədikdə onu dəf elədi. O, insanlar arasında ən şücaətli olan idi.” “Həyatus sahabə”, c.1,səh 366; Hindi, “Kənzal ummal”, c.12,səh 759, №35690; İbn Hacər, “Səvaik əl muhrika”, c.1,səh 76-77

72) Əbdulxeyr nəql edir ki,Əli (r.a) demişdir: “Quran qarşısında olan ən böyük xidmət Əbu Bəkrə məxsusdur. Allah ondan razı olsun, o Quranı ilk toplayan şəxs olmuşdur.” Suyuti, “əl İtqan”, c.1,səh 138

73) “Yəvaqit əs-Siyər” kitabında nəql olunur ki, “Əbu Bəkr vəfat etdikdə Əli (r.a) dedi: “Allah səndən razı olsun! Allaha and olsun ki, insanlara qarşı rəhimli və mərhəmətli idin!”

Bunun bənzərini ibn Sad “ət-Təbəqat əl-Kubra”da (3/171), Əhməd “Fədail əs-Sahabə”də (səh 112,178) və əl-Əşari “Fədail əs-Siddiq”də (səh 6) rəvayyət etmişlər.

74) Aişə (r.a) deyir: “Mənim atam qılıncı ilə ata minərək, Zul Qassə məntəqəsinə getdi. Əli ibn Əbu Talib (r.a) onun atına yaxınlaşaraq dedi:

“Ey Rasulullahın xəlifəsi! Hara belə? Mən sənə Uhud döyüş zamanı Peyğəmbərin (s.a.s) dediyi sözü deyəcəyəm: “Qılıncını qınına tax, bizi səninlə bərabər kədərə salma.”

Ey Rasulullahın xəlifəsi! Əgər biz səni itirsək və bəlaya düşsək, səndən sonra İslam üçün nə həyat olar, nə də yol göstərən biri.”

Əlinin (r.a) bu sözündən sonra Əbu Bəkr (r.a) özü qayıdıb, qoşunu səfərə yola saldı.” “Həyatus sahabə”, c.1,səh 399; “Kənzul ummal”, c.5,səh 871, №14166

75) İmam Malik dedi: “Əgər bizə Peyğəmbərdən (s.a.s) iki fərqli hədis gəlsə və onlardan birində Əbu Bəkr və Ömərin yekdilliklə ona görə əməl etdikləri bildirilsə, bizə vacibdirki, onu əsas alaq.” İbn Cəuzi, “Əxbəru minəl hədis”, səh 25

Əbu Bəkr əs Siddiqin xilafəti

İmam ibn Əbilliz əl Hənəfi yazır: “Əbu Bəkr (r.a) təyinatla, yoxsa səhabələrin seçimi ilə xəlifə olub?! Bu sahədə Əhli Sünnə bir neçə rəyi irəli sürüb: Həsən əl Bəsri və bir qrup əhli hədis nümayəndələri hesab edirdilər ki, o gizli nass və təyinatla xəlifə olmuşdur. Digər qrup əhli hədis nümayəndələri, mötəzilə, əşarilərə görə isə o müsəlmanların seçimi ilə xəlifə olmuşdur. Bir sıra hədislər var ki, onun nass ilə təyin olunmasına dəlalət edir.” “Şərh əl əqidətul Təhaviyyə”, səh 514

Sözünün davamında şeyx buna dəlalət edən hədisləri nəql edir və sonra yazır:

“Mötəbər rəyə əsasən və şübhəsiz doğrusunu Allah bilir, onlar ki, Peyğəmbərin (s.a.s) birbaşa heç kəsi təyin etmədiyini deyirlər, onlar heç bir yazılı və konkret təyinatın edilmədiyini qəsd edirlər. Əgər o yazılı bir vəsiyyət buraxsaydı şübhəsiz ki, orada Əbu Bəkrin (r.a) adını çəkərdi. Axı Peyğəmbər (s.a.s) əvvəl onun lehinə bir yazı yazmaq istədi amma, sonra bundan daşınaraq dedi: “Allah və müsəlmanlar Əbu Bəkrdən başqa heç kəsdən razı olmazlar.” səh 517

Doğrusunu Allah bilir amma, doğru rəyə əsasən Peyğəmbər (s.a.s) bəzi işarələrlə Əbu Bəkri (r.a) fərqləndirmişdi və müsəlmanlar bunun əsasında onu seçdilər. Buna Əlinin (r.a) sözü dəlalət edir:

76) İmam Həsən (r.a) atasından rəvayyət edir: “Peyğəmbər (s.a.s) vəfat etdikdə biz öz halımıza baxdıq. Gördük ki, Rəsulullah (s.a.s) namazda Əbu Bəkri önə çəkdi və bizdə ondan sonra dünyəvi işlərimizi dinimizin tapşırıldığı adama təhvil verdik. Beləcə Əbu Bəkri seçdik.” İbn Cəuzi, “Sifətus səffa”, səh 113

Qeyd: Peyğəmbərin (s.a.s) səhabələri Əbu Bəkri (r.a) ona görə seçdilər ki, ona Rəsulullah (s.a.s) işarə etmişdi və onlar onun özlərindən daha artıq fəzilətə sahib olduğunu görür və bilirdilər.

77) Zeyd ibn Əli (imam Zeynəlabidinin oğlu) öz atalarından rəvayyət edir ki, Əbu Bəkrin xilafəti zamanı Peyğəmbərin (s.a.s) minbərinə qalxaraq, camaat səsləndi:

“Ey insanlar! Aranızda məni xəlifə görmək istəməyənlər varmı?! Əgər varsa, mən onu beyətdən azad edirəm.”

O, bu sözü bir neçə dəfə təkrar etdi və hər dəfə də Əli (r.a) qalxaraq:

“Allaha and olsun ki, biz sənin istefanı qəbul etmirik və bunu istəmirik də. Rəsulullahın (s.a.s) səni önə keçirtdiyi halda kim səni arxaya keçirməyə cürət edə bilər!?” “Həyatus sahabə” c.1,səh 400-401; Hindi, “Kənzul ummal”, c.8,səh 863, №14145

78) Xatib Bağdadi yazır: “Mühacir və ənsarlar yekdilliklə Əbu Bəkri (r.a) xəlifə seçdilər. Onlar ona “Rəsulullahın xəlifəsi” deyirdilər. Peyğəmbər (s.a.s) vəfat etdikdə 30 000 müsəlman var idi və onların hər biri Əbu Bəkrə (r.a) "ey Rəsulullahın xəlifəsi” deyirdi." “Tarix Bağdadi”, c.10,səh 130-131

79) Əbdul Məlik əl Cuvəyni deyir: “Əbu Bəkrin (r.a) xəlifəliyi səhabələrin icması ilə sabitdir və onlardan hər biri onun rəhbərliyinə tabe olub, göstərişlərini yerinə yetirirdi...Rafizilərin iradına gəldikdə isə guya Əli (r.a) beyət etməyə razı olmayıb və s.bunlar hamısı yalandır.” “İrşad”, səh 361

Bəzi fitnəkarlar guya Əlinin (r.a) narazılığını isbat etmək üçün Aişədən (r.a) Əlinin (r.a) altı ay sonra beyət etməsi haqqındakı rəvayyətini dəlil olaraq gətirirlər.

"Əbu Səid əl Xudri (r.a) deyir ki, Peyğəmbər (s.a.s) vəfat etdikdən sonra camaat Səd ibn Ubadənin evində toplaşdı. Onların arasında Əbu Bəkr və Ömər də var idi. Ənsarlardan bir nəfər dedi:

- “Bildiyiniz kimi biz Peyğəmbərin (s.a.s) ənsarları (köməkçiləri) olmuşuq. İndi isə onun xəlifəsinin ənsarları olacayıq. Rəvayyətçi deyir ki, bu zaman Ömər ibn Xəttab qalxıb, dedi:

- “Sizin adamınız doğru danışır. Əgər siz bundan başqa bir söz desəydiniz biz sizinlə beyət etməzdik.” Sonra Ömər, Əbu Bəkrin əlini tutub dedi:

- “Sizin admınız budur, ona beyət edin”, deyib özü beyət etdi, ardınca isə mühacir və ənsarlar beyət etdilər. Rəvayətçi deyir: “Əbu Bəkr minbərə çıxıb, camaata nəzər yetirdi və onların arasında Zubeyrin olmadığını görüb, onu çağırtdırdı və dedi:

“Ey Peyğəmbərin (s.a.s) bibisi oğlu, müsəlmanların vəhdətini pozmaq istəyirsənmi?!”

Zubeyr “Ey Peyğəmbərin (s.a.s) xəlifəsi, heç şübhən olmasın,” deyib, beyət etdi. Sonra yenə də camaata nəzər yetirdi və Əlinin orada olmadığını görüb, onu da çağırtdırdı və dedi:

- “Ey Peyğəmbərin (s.a.s) əmisi oğlu və kürəkəni, müsəlmanların vəhdətini pozmaq istəyirsənmi?!”

Əli “Ey Peyğəmbərin (s.a.s) xəlifəsi, heç şübhən olmasın, deyib, beyət etdi.”

Bu rəvayyəti Hafiz ibn Kəsir “əl Bidayə vən Nihayə” adlı kitabında (c.6,səh 306) qeyd etmiş və rəvayyəti Beyhəqiyə istinad etmişdir. Həmçinin, “Fəslul xitab fi məukiful əshab” kitbında (səh 61-62) bu hədisin ravilər silsiləsinin səhih olduğunu qeyd etmişdir.

Şiə alimi Seyyid Cəfər Şəhidinin Arif Əliyev tərəfindən dilimizə tərcümə olunmuş “İslam tarixi və təhlillər” kitabında (səh 85) müəllif yazır:

“Bəzi tarixçilərin yazdığına görə Əli (r.a) Peyğəmbərin (s.a.s) vəfatından 6 ay sonra yəni, Fatimənin (r.a) vəfatına qədər Əbu Bəkrə beyət etmədi. Lakin, bu deyilənlər heç də həqiqətə yaxın deyil. Birincisi, Fatimə (r.a) 6 aydan tez bir müddətdə vəfat etmiş, ikincisi Əli (r.a) ümmət arasına düşə biləcək təfriqədən ehtiyyat edərək beyəti gecikdirməmişdir.”

Ona görə də Əli (r.a) ilə Əbu Bəkr (r.a) arasında heç bir ciddi problem yox idi.

Əli əl Qari əl Hənəfi deyir: “Onu Siddiq adlandırmışlar. Çünki, o Peyğəmbərə (s.a.s) ilk iman gətirən şəxs olmuşdur. Onu təsdiqləmiş və bu təsdiqində yüksək dərəcədə səmimi və ixlaslı olmuşdur. O, ilk və sonda gələnlərin ən fəzilətlisidir. Bunda icma vardır və rafizilərin buna etirazının heç bir əhəmiyyəti yoxdur.” 📚 "Şərhul fiqhul əkbər”, səh 170

Şiə mənbələrində Əbu Bəkrin (r.a) fəziləti

1) Əli (r.a) demişdir: “Filankəsin (Əbu Bəkr vəya Ömər) ölkəsi nə əzəmətlidir. O, əyriləri düzəltdi, bidətləri aradan qaldırdı və Allah Rəsulunun (s.a.s) sünnəsini bərpa etdi, fitnəni arxada qoydu. O, dünyadan günaha bulaşmadan, eyibsiz halda getdi, bu dünyanın xeyrini götürdü, şərrini isə atdı, Allahın itaət borcunu ödədi və ondan lazım olduğu qədər ehtiyyat etdi.”(təqvalı oldu)

“Nəhcul Bəlağa”, Subki Saleh tədqiqi ilə səh 350; Muhəmməd Abduhun nüsxəsində c.2,səh 322

2) Əlinin (r.a) Müaviyə yazdığı məktubda deyilir:

“Mən artıq demişəm ki, Allah Təala öz Peyğəmbərinə (s.a.s) müsəlmanlardan olan köməkçilər seçib. Dediyim kimi bu müsəlmanlar öz təqvaları ilə seçilirdilər. Onlardan Allaha və Peyğəmbərə (s.a.s) ən sadiqi Siddiq və onun varisi Faruq idi. And içirəm ki, onların İslamda yerləri həqiqətən böyükdür. Onların yoluxduğu adam şiddətli İslam xəstəliyinə tutular yəni, onlardan ibrət götürənlər dinlərində daha möhkəm olardılar). Allah onlara rəhmət etsin və onları gördükləri ən yaxşı işlərə görə mükafatlandırsın.”

Meysəm, “Şərh Nəhcul-Bəlağə”, 1/31, Tehran çapı

3) Şiə tarixçisi Yəqubi Əbu Bəkrin xilafəti illərinə toxunarkən, yazır: “Əbu Bəkr rumlulara qarşı yürüş etmək istədi. Bu məqsədlə səhabələrdən olan camaatla məsləhətləşdi. Müxtəlif fikirlər olduqda Əbu Bəkr Əliyə məsləhət üçün müraciət etdi. Əli ona müharibəni başlamağı tövsiyyə etdi və dedi: “Əgər müharibəni başlasan qalib gələcəksən.” Əbu Bəkr dedi: “Allah səni sevindirsin.” Sonra Əbu Bəkr insanlara üz tutaraq, onların döyüşə hazırlaşmalarını istədi.” “Tarix Yəqubi”, c.2,səh 132-133

Digər rəvayyətdə isə Əbu Bəkr Əlidən bunu haradan bildiyini soruşduqda Əli dedi:

“Mən Peyğəmbərin (s.a.s) bizə bu müjdəni verdiyini eşitdim.”

Əbu Bəkr dedi: Ya Əbu Həsən! Peyğəmbərin (s.a.s) bu müjdəsi ilə məni sevindirdin, Allah səni sevindirsin." “Tarihu təvarih”, c.2,kitab 2,səh 158

4) Şiə tarixçisi əl Yəqubi yazır: “Əbu Bəkrin xilafəti zamanı şəriət məsələlərinə görə bir neçə adam var idi ki, onlara müraciət olunurdu. Bunlar: Əli ibn Əbu Talib, Ömər ibn Xəttab, Muaz ibn Cəbəl, Ubeyy ibn Kaab, Zeyd ibn Sabit və Abdullah ibn Məsud idi.” “Tarix Yəqubi”, c.2,səh 138

5) Əli (r.a) daima xütbələrində deyərdi: “Allahım! Raşid xəlifələrini islah etdiyin kimi, bizi də islah et!” Ondan soruşanda ki; “onlar kimlərdir?”, cavabında İmam belə demişdir:

“Onlar iki sevimli, İslamın şeyxləri, hidayət rəhbərləri və Peyğəmbərdən (s.a.s) sonra özlərinə tabe olunan Qureyşin kişiləri: Əbu Bəkr və Ömərdir. Kim onlara tabe olsa qorunar, onların izi ilə gedən isə doğru yolda olar.” Tusi, “Təlxisuş-Şəfi” 2/428

6) Məşhur şiə alimi Şeyx Mufid “İrşad” kitabında “Əbu Bəkrin xilafəti dövründə Əlinin vəziyyəti” adlı fəsli ayırmışdır. Bu fəsildə o yazır: “Əbu Bəkrin yanına içki içən adam gətirdilər. Onu cəzalandırmaq istədikdə o dedi:

- “Mən içkini içərkən, onun qadağan olduğunu bilmirdim. Beləki, mən içkini içən və onu haram görməyən adamların arasında böyümüşəm. Buna görə də mən içkinin haram olduğunu bilməmişəm.

Əbu Bəkr bu işi həll etmədə çətinlik çəkdi. Onun yanındakılar ona məsləhət gördülər ki, bu məsələnin həlli üçün möminlərin əmiri Əliyə müraciət etsin. Əbu Bəkr imamın yanına adam göndərdi.

- İmam dedi: “Etibar etdiyin iki adamı mühacir və ənsarların məclislərinə göndər və onlardan soruş.Bu adama aranızdan hər hansı biriniz içkinin qadağan olunması barədə ayə və hədisi çatdırıbmı?! Əgər bunu iki nəfər təsdiqləsə onu cəzalandır.Əgər təsdiq edən olmasa onu tövbə elətdirib, buraxın.”

Əbu Bəkr belə də etdi. Mühacir və ənsarlardan heç kəs ona içkinin haram olması xəbərini çatdırmadığını dedi və Əbu Bəkr Əli deyən kimi onu tövbə elətdirib azad etdi.” “İrşad”, Mufid səh 107

7) “Bir dəfə kafirlər elə oldu ki, Mədinəyə girdilər və gördülər ki, müsəlmanlar hərəsi bir tərəfdə, cihadda və dindən dönənlərə qarşı müharibədə olduğu üçün azdırlar. Əbu Bəkr kafirlərin Mədinə üçün bu təhdidini başa düşdü və göstəriş verdi ki, Mədinə şəhəri bir çox ehtimal olunan yerlərdə mühafizlər və gözətçilər qoyulmaqla qorunsun.O, Əli, Zubeyr, Təlha, ibn Məsuda bu gözətçilərin başında əmir təyin etdi. Onlar bu işdə təhlükə sovuşana qədər qaldılar.” İbn Hədid,“Şərh Nəhcul Bəlağa”, c.4,səh 228

8) Əbu Bəkrin vaxtında imam Əli qənimətdən gələn malın 1/5-i bölüşdürülməsi və idarə edilməsi ilə məşğul idi. Sonra bu haqq Həsənə keçdi, sonra Hüseynə, sonra Zeyd ibn Həsənə keçdi.” İbn Hədid,"Şərhu Nəhcul-Bələğa", c.4,səh 118

9) “Əli (r.a) müntəzəm olaraq Peyğəmbər (s.a.s) məscidini ziyarət edərdi və orada Əbu Bəkrin arxasında namaz qılardı. Bununla da ona dostluğunu, rəhbərliyini təsdiq edərdi.” Təbərsi, “İhticac”,səh 53

10) İmam Zeynalabidin əl-Həşr surəsinin 8-10 cu ayələri ilə Əbu Bəkr, Ömər və Osmanı rafizilərə qarşı müdafiə etmişdir. “Kəşful-ğummə”, 2/291

11) İmam Baqir demişdir: “Allah, Əbu Bəkrə Siddiq (doğrucul) deməyənin sözünü nə bu dünyada, nə də axirətdə təmizə çıxarmaz.” “Kəşful-ğummə”, 2/360

12) "Əbu Bəkrin (r.a) vəsfi haqqında Qumminin təfsir kitabında Əbu Abdullahdan nəql etdiyi rəvayyətdə deyilir:

“Peyğəmbər (s.a.s) mağarada olarkən Əbu Bəkrə demişdir:

“Elə bilki Cəfərin gəmidə öz əshabələri ilə dənizdə üzdüyünü görürəm və ənsarlara baxıram və görürəm ki, günahsız halda evlərində oturublar. Bu an Əbu Bəkr: ”Ey Allahın Rəsulu! Sən onları görürsənmi?! Peyğəmbər (s.a.s) “bəli” cavabını verdi. Əbu Bəkr mənədə göstər Ey Allahın Rəsulu dedi və Peyğəmbər (s.a.s) Əbu Bəkrin gözünə əlini çəkdi və o da onları gördü. Peyğəmbər (s.a.s) Əbu Bəkrə: Sən siddiqsən dedi.”

Qumminin Təfsiri, c.1,səh 289; “Burhan”, c.2,səh 125

13) Cabir Cufi rəvayyət edir ki, bir dəfə imam Baqir onunla vidalaşan zaman ona demişdir: “Kufə əhlinə bildir ki, mən Əbu Bəkr və Ömərdən üz döndərənlərin günahını bölüşmürəm." “Hilyətul auliyyə”,c.3,səh 39,137

14) Kufə camaatı imam Zeyd ibn Zeynəlabidinə dedilər:

“Allah sənə rəhm eləsin! Əbu Bəkr və Ömər haqqında nə deyirsən?!

İmam dedi: “Mən onların ünvanına yaxşı sözlərdən başqa heçnə deyə bilmərəm. Çünki, öz ailəmdən onların haqqında heç bir pis söz eşitməmişəm. Onlar bizim və digər insanların haqqını pozmadılar, Quran və sünnə ilə hərəkət etdilər.”

“Nəsxu tarix”, c.2,səh 590; Kəşani, “Qiyamlar”, səh 181,Əndişei Hadi nəşr;2005

15) "Qureyşlilərdən bir nəfər möminlərin əmiri Əli ibn Əbu Talibə dedi: “Mən sənin çıxışlarında eşidirəm ki, deyirsən:

“Ey Rəbbim! Bizi Raşidi xəlifələrini islah etdiyin kimi islah et.” Onlar kimlərdir?!

İmam cavab verdi:

“Mənim sevdiklərim və sənin babaların Əbu Bəkr və Ömər. Onlar ki, Peyğəmbərdən (s.a.s) sonra örnək alınacaq insanlardır. Onlar Qureyşdən olan rəhbərlər, yolgöstərən və İslamın şeyxləridir. Kim onların yolu ilə getsə qorunar, kim onların məsləhətlərinə qulaq assa doğru yola yönəlmiş olar.” Tusi, “Təlxis əş Şafi”, c.2,səh 428

16) İbn Abbas Əbu Bəkr baradə xatirələrində deyir:

“Allah Əbu Bəkrə rəhmət etsin. Allaha and olsun ki, o kasıblara qarşı şəfqətli idi. Quran oxuyar, pis işlərdən çəkindirər, Allahdan qorxar, yaxşı işləri əmr edər, gecə yarı ibadət edər, gündüzlər isə oruc tutardı.O, təqvada və təvazökarlıqda yoldaşlarını qabaqladı. Dünya nemətlərinə göz dikmədən insanları idarə etdi və bu işdə təvazökarlıqdan ayrılmadı." “Nəsux Təvarix”, c.5,kitab 2,səh 143-144

17) İmam Əbu Cəfərdən soruşmuşlar ki, qılıncı bəzəmək olarmı?! O demişdi ki, olar. Əbu Bəkr Siddiq öz qılıncını gümüşlə bəzəyərdi. Soruşan adam ona demişdi ki, sən də ona "Siddiq" deyirsən?! İmam yerindən dik atılmış və demişdir:

"Bəli, Siddiq deyirəm, bəli Siddiq deyirəm. Kim ona Siddiq deməsə, Allah onun sözünü bu dünyada və axirətdə təsdiqləməz." Ərdəbili, "Kəşful Ğummə",c.2,səh 147,360

18) Əbu Abdullahdan (imam Cəfər) Əbu Bəkr və Ömər baradə soruşduqda o dedi:

"Onlar hər ikisi ədalətli rəhbərlər və haqqın tərəfdarları idilər. Bu halda da dünyadan köçdülər. Allahın mərhəməti Qiyamət gününə qədər onların üzərində olsun." Şüştari, "İhqaqul haqq", c.1,səh 16

19) Kuleyni "Kafi"də nəql edir: "Əbu Bəkr vəfat edəndə ona sual verdilər: "Nəyi vəsiyyət edirsən?!" O, cavab verdi: "Malımın 1/5-i miras buraxıram. Beləki, bu kifayətdir. Çünki, Allah özü 1/5 ilə razıdır. Beləcə o yalnız 1/5-i miras qoydu. Amma, Allah ona ölənə qədər malının 1/3-ü nəsib etdi.Əgər o bilsəydi ki, malın 1/3-i onun üçün daha yaxşıdı, onu miras qoyardı.Ondan sonra bu xüsusiyyətdə üstün olanlar Salman və Əbu Zərrdir....." "Kafi", c.5,səh 68

20) Ərdəbili "Kəşful Ğummə"də Əbu Abdullahdan nəql edir: "Əbu Bəkr məni iki dəfə dünyaya gətirmişdir." Ərdəbili, "Kəşful Ğummə" c.2,səh 161

Şiə alimi Növbəxti yazır: "İmamın (imam Cəfər) anası Umm Fərva - Qasim ibn Muhəmməd ibn Əbu Bəkrin qızı idi. Umm Fərvanın anası isə Əsma bint Abdurrəhman ibn Əbu Bəkr idi." Növbəxti, "Firəquş şia" səh 78

Qeyd: Yəni, imamın anası həm ata, həm də ana tərəfdən Əbu Bəkrin nəticəsidir.

21) Seyyid Mürtəza imam Cəfərdən rəvayyət edir ki, imam Peyğəmbərin (s.a.s) qəbrinin yanından keçərkən, onunla bərabər yanındakıları da salamlayardı."

"Kitabuş şafi", səh 238; "Nəhcul Bəlağanın şərhi", c.4,səh 148

22) Həsən Əsqəridən nəql olunur: "Peyğəmbər (s.a.s) imam Əliyə yatağına uzanmasını buyurduqdan sonra Əbu Bəkrə dedi:

"Mənimlə olmaq, getmək istədiyim yerə getmək və mənim yolumda əziyyətlərə düçar olmaq istəyirmisən ey Əbu Bəkr?!"

Əbu Bəkr dedi: "Ey Allahın Eıçisi! Əgər mən Qiyamət gününə kimi yaşamış olsaydım və əziyyətlərə düçar olsaydım amma, bundan ölməsəydim, heç bir sevinc görməsəydim, bu mənim üçün sənə düşmən olan bütün ölkələrin hökmdarı olmaqdan daha yaxşı olardı. Məgər mən öz canımı, mülkümü və övladlarımı sənin yolunda fəda etmərəmmi?!"

Peyğəmbər (s.a.s) dedi: "Şübhə yoxdur ki, Allah sənin qəlbində olanları bildi və bunu dediklərinə bərabər qıldı və səni mənim üçün ən yaxın yoldaş, məni əvəz edən

eşidən qulaq, görən göz, baş, bədən və qəlb etdi.” “Həsən əl-Əsgərinin təfsiri”, səh 164-165

23) Salman Farsi (r.a) deyir: “Peyğəmbər (s.a.s) öz səhabələrinə deyərdi: “Əbu Bəkr sizi namaz və orucla deyil, qəlbindəki ixlasla, səmimiyyətlə keçdi.”

Şüştari, “Məcalis muminin” səh 89

24) Peyğəmbər (s.a.s) Əbu Bəkrə Bədr günü müşriklər tərəfində vuruşan, yaxşı silahlanmış Əbu Bəkrin oğlunu öldürməməyi buyurdu və dedi: “Qılıncını gizlət və yerinə sal ki, sənin bizimlə bərabər olmağından zövq alaq.” Ərdəbili, “Kəşful Ğummə” c.1,səh 190

25) “Bundan başqa Əbu Bəkr imam Əliyə Yəmamə döyüşündə əsirlərlə bərabər götürülən Hallu bint Cəfər ibn Qeysi hədiyyə etmişdi. O, Əliyə Həsən və Hüseyndən sonra ən xeyrli olan övladı Muhəmməd ibn Hənəfiyyəni dünyaya gətirdi.”

“Umdətul talib”, fəsil 2, səh 352; “Haqqul yəqin”, səh 213

26) Kuleyni Əbu Bəsirin belə dediyini rəvayyət edir: “Mən imam Əbu Abdullahın yanında idim. Bu vaxt umm Xalid onun (yəni Əbu Abdullahın) yanına girməyə icazə istədi. Əbu Abdullah mənə dedi:

- “Sən onun nə dediyini eşitmək istərdinmi?!”

Mən dedim: “Bəli”

O, qadına daxil olmağa icazə verdi və məni öz yanında xalçanın üstündə əyləşdirdi. Sonra qadın daxil oldu və danışdı. Mən gördüm ki, o bəlağətli xanımdır. Qadın ondan: “Mən Əbu Bəkr və Ömərin xəlifəliyini qəbul edib, onları sevə bilərəmmi? deyə soruşdu”

-İmam: “Bəli, qəbul edə bilərsən.” Qadın: “Mən Rəbbimin hüzurunda olduğum zaman "bunu sən mənə əmr etdin" deyə Ona xəbər verə bilərəmmi?!” deyə soruşduqda, Cəfər Sadiq ona: "Bəli" deyə cavab verdi.”

Kuleyni,“Kitab ər-rövzə”, səh 29, Hindistan çapı; başqa nəşrdə “ər Ravzə minəl Kəfi” c.8,səh 101,238

27) Əli (r.a) demişdir: “Əbu Bəkrə, Ömərə, Osmana beyət gətirmiş adamlar, onlara beyət gətirdikləri məsələdə mənə də beyət gətirmişlər. Onlarda qayda belə idi ki, orada iştirak edən adam özü istəyəni seçə bilməz, o zaman orada olmayan isə seçilmiş adamı rədd edə bilməzdi. Yalnız mühacirlərin və ənsarların şurası bir adam haqqında eyni fikirdə olub, onu imam adlandıranda, Allahın bu işə razılığı əlaməti sayılardı. Əgər bir nəfər tənə edərək vəya bidətlə onların işindən özünü kənara çəksəydi, onu fikrindən daşındırardılar. Etiraz etsəydi, möminlərin yolu ilə getmədiyi üçün ona qarşı üsyan edərdilər və Allah da ona layiq olduğunu verərdi.”

“Nəhcul-Bəlağə”, səh 366-367; Tehran çapı, 1995,6-cı xütbə

28) İbn Əbil-Hədid "Nəhcul-Bələğə" əsərinin şərhində nəql edir ki, Əbu Bəkrin xəlifə seçilməsinin səbəbi soruşulduqda həzrəti Əli belə cavab vermişdir:

"Biz insanlar içində bu işə ən layiq olanın Əbu Bəkr olduğunu düşünürdük. Çünki, O (Quranda zikr olunmuş) mağara yoldaşıdır, iki nəfərdən ikincisidir və bir onun təcrübəsini də bilirdik və Allahın Elçisi sağ olduğu zaman ona namazda imam durmağı əmr etmişdi." İbn Əbil Hədid, "Şərhu Nəhcil-Bəlağa", 1/332

29) Əli (r.a) deyir: "Müsəlmanlar Peyğəmbərin (s.a.s) vəfatından sonra özlərindən birini seçdilər. O, müsəlmanları müxtəlif yollarla bir-birinə yaxınlaşdırdı, qorxu və zülmü aradan qaldırdı." Meysəm Bəhrani, "Şərhul Nəhcul Bəlağa", səh 400

30) İmam Əli can üstə olanda ondan soruşdular:

"Səndən sonra kim xəlifə və rəhbər olacaq?" Əbu Vail və Hakimin rəvayyətinə görə Əli ibn Əbu Talibdən soruşurlar: "Bizə öz varisini göstər."

İmam Əli dedi: "Peyğəmbər (s.a.s) bizə heç kimi buraxmadı, mən niyə kimisə varis buraxmalıyam. "Əgər Allah Təala onlar üçün xeyir istəsə onları Peyğəmbərdən sonra yaxşı adamın ətrafında topladığı kimi toplayacaqdır." Şeyx Tusi, "Təlxis əş Şafi", c.2,səh 372

-Bu hədisi imam Hakim "Müstədrək" əsərində nəql etmiş və qeyd etmişdir ki, hədisin ravilər zənciri səhihdir.

31) Əli (r.a) deyir: "Biz Allahın qədəri ilə razıyıq və işlərimizdə ona təvəkkül edirik. Mən nə edəcəyimi düşündüm və qərara gəldim ki, mənə beyət etməmiş birinci beyət etməliyəm. Çünki, başqasına beyət etmə öhdəliyi artıq mənim üzərimdə idi."

"Şərhul Nəhcul Bəlağa", səh 81

32) Əli (r.a) deyir: "Mən onda Əbu Bəkrə gedib, ona beyət etdim və yalanı məhv edən hadisələrdə iştirak etdim. Beləcə Allahın kəlamı kafirlər istəməsədə ucaldı. Əbu Bəkr bütün işləri ələ alıb, onları səhmana saldı. Hər kəsin haqqını verib, özünə yaxınlaşdırdı və qənəatçil oldu. Mən ona tövsiyyələr verib, Allahı razı salan işlərdə ona tabe oldum."

"Hərrat", c.1,səh 307; fəsil: "Muhəmməd ibn Əbu Bəkrin öldürülməsindən sonra Əlinin səhabələrə müraciəti"; "Məanarul huda", səh 373; "Nəshu təvarih" c.3,səh 532

33) Əli (r.a) Cəməldə məğlub olanlarla görüşərək deyir: "Siz Əbu Bəkrə beyət edib, məndən üz döndərdiz. Halbuki, mən də siz kimi Əbu Bəkrə beyət etmişdim....Ömərə də sizin kimi beyət etmişdim və sözlərimdə sadiq oldum....Sonra siz mənim kimi Osmana da beyət etdiz. Sonra mənə heç bir dəvət və məcburiyyət olmadan evimə gəlib, Əbu Bəkrə, Ömərə, Osmana beyət etdiyiniz kimi beyət etdiz. Kim sizə Əbu Bəkrə, Ömərə, Osmana olan beyətə sadiq olub, mənə olan beyəti pozmaq hüququ verib?!"

Şeyx Tusi, "Aməli" c.2,səh 121

34) "Sonra Əbu Bəkr qalxaraq, insanlara müraciət etdi və üzr istədi. Allah bizləri bu beyətin şərrindən qorusun. Mən insanlar arasında olacaq fitnədən qorxdum. Allaha and olsun ki, mən bunda heç vaxt israr etmədim. Mən üzərimə gücüm çatmayacaq və

məndə o gücün olmadığı öhdəliyi götürdüm. Mən çox istərdim ki, insanlardan güclü olan bir nəfər mənim yerimə bu işi alsın."

Əbu Bəkr beləcə üzr istədi və mühacirlər onun üzrünü qəbul etdilər. Əli və Zubeyr dedi: "Biz sadəcə şura zamanı bizim çağrılmamamıza görə incimişdik. Amma, biz Əbu Bəkri hamıdan daha çox bu işə layiq hesab edirik. Çünki, o Peyğəmbərin (s.a.s) mağara yoldaşıdır və biz onu yaxşı tanıyırıq. Hələ Peyğəmbər (s.a.s) sağlığında ona müsəlmanlara camaat namazında İmam durmağı buyurmuşdu."

İbn Hədid, "Şərh Nəhcul Bəlağa" c.1,səh 132

Fatimə (r.a) ilə evlənmədə Əbu Bəkr və Ömərin xidməti

1) Şeyx Tusi Dəhhaq ibn Muzəhimədən rəvayyət edir: "Mən Əli ibn Əbu Talibin belə dediyini eşitmişəm: "Mənim yanıma Əbu Bəkr və Ömər gəldilər və dedilər: "Peyğəmbərin (s.a.s) yanına gedib, onun yanında Fatiməni xatırlatsaydın..."

Əli (r.a) dedi: "Sonra mən Rəsulullahın (s.a.s) yanına getdim.O, məni görcək, gülümsədi və dedi: "Ya Əli! Səni bura nə gətirdi və nəyə ehtiyyacın var?"

Mən bizim qohumluq əlaqələrimizi, İslamda birincilərdən olmağımdan, cihaddakı iştirakımı xatırlatdım. Peyğəmbər (s.a.s) buyurdu:

"Ya Əli! Sən haqqlısan və hətta, dediklərindən də əfzəlsən. Onda mən dedim:

"Ey Allahın Elçisi! Məni Fatimə ilə evləndir." Tusi, "Aməli", c.1,səh 38

2) Məclisi kitabında yazır:

"Günlərin bir günü Əbu Bəkr, Ömər və Sadd ibn Muaz məsciddə oturaraq Əlinin Fatimə ilə evlənməsi məsələsini müzakirə edirdilər.

Əbu Bəkr dedi:

"Qureyşin ağsaqqalları Peyğəmbərə (s.a.s) Fatimənin evliliyi baradə müraciət etmişlər. Amma, Peyğəmbər (s.a.s) dedi ki, hər şey Allahın ixtiyarındadır. Biz belə güman edirik ki, o Əli ibn Əbu Talibin zövcəsi olacaqdır. Əli isə bununla bağlı Peyğəmbərə (s.a.s) kasıb və əmlakının olmaması üzündən müraciət etməmişdir. Əbu Bəkr, Ömər və Sad dedilər:

"Gəlin Əli ibn Əbu Talibin yanına gedək, ona təsəlli verək və onun Fatiməni Peyğəmbərdən (s.a.s) istəməsinə təşviq edək. Əgər problem kasıblıqdırsa, biz ona kömək edərik."

Sad dedi: "Bu yaxşı fikirdir."

Daha sonra onlar Əli ibn Əbu Talibin evinə getdilər. Onlar gəldikdə Əli soruşdu:

“Sizi bu vaxtı bura nə gətirdi?!”

Əbu Bəkr dedi: “Ya Əbu Həsən! Elə bir yaxşı xüsusiyyət yoxdur ki, sən bizi onda qabaqlamayasan.....Sənə Fatiməni Peyğəmbərdən (s.a.s) istəməyə nə mane olur?!”

Əli bu sözləri Əbu Bəkrdən eşidəndə gözlərindən yaş süzüldü və dedi:

“Mənim yaralarım açıldı. Siz mənim çoxdan bəri gizlətdiyim ümidlərimi oyatdız, yuxularımı isə çin etdiz. Onunla kim evlənmək istəməz?! Mənə sadəcə kasıb olmağım mane olur və mən Peyğəmbərə (s.a.s) belə kasıb halda üz tutmaqdan utanıram.”

“Cilalul əyun”, c.1,səh 169, 185

3) Əli (r.a) deyir: “Mən Peyğəmbərdən (s.a.s) Fatiməni istədiyim zaman o mənə dedi: “Öz qalxanını sat və əvəzində pul gətir ki, bunun müqabilində mən səni və Fatiməni bəzi şeylərlə təmin edim.

Əli (r.a) deyir: “Mən qalxanımı aldım və bazara getdim. Orada mən qalxanımı Osman ibn Əffəna satdım. Mən pulu, Osman isə qalxanı alanda o mənə dedi:

“Ey Əbu Həsən! Sənin pula ehtiyyacınmı var?! Mən dedim: “Elədir.”

Osman dedi: “Qalxanını götür. Mən onu sənə bağışladım.”

Mən qalxan və pulu alıb, Peyğəmbərin (s.a.s) yanına gəldim. Onu Peyğəmbərin (s.a.s) qabağına qoyub, Osmanın nə etdiyini dedim. Bundan sonra Peyğəmbər (s.a.s) onu üçün dua etdi.”

Xəvarəzmi, “Mənakib” səh 252-253; “Kəşful Ğummə” Ərdəbili, c.1səh 359; Məclisi, “Biharul Ənvar”, c.43,səh 130

4) Şeyx Tusi yazır: “İmam Əli öz qalxanını satdı və dirhəmləri Peyğəmbərə (s.a.s) gətirdi. Sonra Peyğəmbər (s.a.s) dirhəmləri alıb, Əbu Bəkrə verdi və dedi:

“Fatimə üçün paltar və ev əşyalarından zəruri olanları al və Əmmar ibn Yasir vəya digər dostlarına ötür ki, onlar bunları gətirsinlər.”

Onlar bazara getdilər və zəruri olan yaxşı malları Əbu Bəkrə göstərmədən almadılar. Əgər mal Əbu Bəkrin xoşuna gələrdisə onu alardılar. Alış veriş qurtardıqdan sonra Əbu Bəkr malların bir hissəsini alıb onun evinə, digər səhabələr isə digər hissəsini apardılar.”

Tusi, “Əməli”, c.1,səh 39; “Mənakib ibn Şəhraşub Məzandarani”, c.2,səh 20; “Cilalul əyun”,c.1,səh 176, fars dilində.

5) “Əbu Bəkr, Ömər, Sad Əlini Peyğəmbərin (s.a.s) yanına göndərdikdən sonra onu məsciddə Peyğəmbərdən (s.a.s) ürəyə xoş gələn xəbər və bu təklifin qəbul olunması müjdəsini gözləməyə başladılar. Hər şey onların gözlədiyi kimi oldu. İmam Əli özü deyir:

“Mən Peyğəmbərin (s.a.s) yanından sevincimin həddi hüdudu olmadığı bir halda çıxdım. Məni Əbu Bəkr və Ömər qarşıladılar və dedilər: “Nə oldu?”

Mən dedim: “Peyğəmbər (s.a.s) öz qızı Fatiməni mənə ərə verməyə razı oldu....” Onlar çox sevindilər və mənimlə birgə məscidə qayıtdılar.....”

📚 Xəvarəzmi, “Mənakib” səh 251-252; “Kəşful-Gummə”,c.1,səh 358; Məclisi, “Biharul Ənvar” c.10,səh 38-39

Fatimənin (r.a) dəfni

“Əbu Bəkrin yoldaşı Əsma bint Umeys Fatimə can ayağında olanda onunla bərabər idi, onu qüsl etdirib, dəfn edənlərdən biri idi. Fatiməyə Əli birdə Əsma qulluq edirdilər.” 📚 “Tarix Yəqubi”, c.2,səh 117

“Fatimə ona kəfənini bağlamağı, dəfn etməyi və qəbrə qədər müşayət etməti vəsiyyət etmişdi. Əsma bunları yerinə yetirdi.” 📚 “Cilalul əyun”, səh 235,242

“Əsma Fatimə ilə birgə onun son nəfəsinə qədər oldu və o Əlini bundan xəbərdar etdi.” 📚 “Cilalul əyun”, səh 237

“Əsma Fatimənin yuyulmasında iştirak etdi.” 📚 “Kəşful-ğummə”, c.1,səh 504

“Fatimə xəstələnəndə Əli beş vaxt namazı məsciddə qılırdı. Namazı bitirdikdən sonra Əbu Bəkr və Ömər onu soruşurdular: “Peyğəmbərin (s.a.s) qızı özünü necə hiss edir?” 📚 “Kitab Suleyman ibn Qeys”, səh 353; “Biharul ənvar”,c.43,səh 198

“Fatimə vəfat edən günü Mədinənin kişi və qadınları ağladılar. İnsanlar Peyğəmbərin (s.a.s) vəfat etdiyi gün kimi kədərlənmişdilər. Əbu Bəkr və Osman Əliyə təsəlli verir, ona başsağlığı verir və deyirdilər: “Ey Əbu Həsən! Peyğəmbərin (s.a.s) qızının cənazə namazını bizsiz qılma.” 📚 “Kitab Suleyman ibn Qeys”, səh 255

İmam Baqir atasından rəvayyət edir ki, Fatimə (r.a) vəfat edəndə Əbu Bəkr və Ömər gəlib, cənazə namazı qılmaq istədilər. Əbu Bəkr Əliyə namazda imamlıq etməyi xahiş elədi. Əli dedi: “Mən sənin qarşına keçə bilmərəm. Sən Allah Elçisinin xəlifəsisən və namaz 4 təkbirdən ibarət oldu.” 📚 “Kənzul”, c.6 “fəzilə mun Qasima əl fəal” fəsli